RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 49 (9216) 4 MART 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# 120 ölkənin siyasi koordinatoru yenə də Azərbaycandır




### İlham Əliyevin sədrliyi ilə Qoşulmama Hərəkatı yeni dünya düzəninin formalaşmasında qətiyyətli rol alacaq

İlham Əliyev yeni dünya düzəninin formalaşması fikrini ifadə etməklə əsas diqqəti sülhün və təhlükəsizliyin təmin edilməsinin vacibliyinə, beynəlxalq hüququn işləməməsinə yönəltdi. Ölkələri Qoşulmama Hərəkatının yeni dünya düzəninin formalaşmasında fəal iştiraka çağıran Azərbaycan Prezidenti həm də BMT sistemində təcili islahatların zəruriliyini vurğuladı, eyni zamanda hərəkatın üzv dövlətlərindən birinin BMT Təhlükəsizlik Şurasında təmsil olunmasının vacibliyini bildirdi: "İndi dünya "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir ki, onun fəsadları dünyanın qalan hissəsində də hiss olunur. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir".

İlham Əliyevin təşəbbüsü ilə reallaşan Bakı Zirvə görüşünü Qoşulmama Hərəkatının həmrəyliyinin simvolu adlandıran dövlət və hökumət başçıları bildirdilər ki, Azərbaycan beynəlxalq iqtisadi böhranların nəticələrini azaltmaq üçün ölkələrin çoxtərəfli əməkdaşlığına töhfə verməyə sadiqdir.

Bu Zirvə görüşü Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın bəşəriyyəti narahat edən çağırışlara münasibətdə beynəlxalq hüququn qlobal məsuliyyətini yüksək səviyyədə nümayiş etdirən bir dövlət kimi davranmasının növbəti təzahürüdür.

10

## Azərbaycan Prezidenti Bolqarıstanın milli bayramı münasibətilə həmkarını təbrik edib

Bolqarıstan Respublikasının Prezidenti zati-aliləri cənab Rumen Radevə



Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Biz Azərbaycan-Bolqarıstan əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. Dost ölkə və strateji tərəfdaşımız olan Bolqarıstanla yüksəksəviyyəli siyasi dialoqumuz, iqtisadi, enerji, nəqliyyat, mədəni və digər sahələrdə dinamik inkişaf edən münasibətlərimiz, səmərəli əməkdaşlığımız və bir çox sahələrdə əldə etdiyimiz nailiyyətlər bizi sevindirir.

Keçən ilin oktyabrında Bolqarıstana etdiyim rəsmi səfərin nəticələri, eyni zamanda səfər çərçivəsində Avropanın enerji təhlükəsizliyinə töhfə verən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun istifadəyə verilməsi strateji tərəfdaşlığımızın yüksək səviyyəsindən xəbər verir. Enerji sektorunda səmərəli işbirliyimizin ticarət, nəqliyyat, logistika, sərmayə, yüksək texnologiyalar, turizm və digər sahələr və istiqamətlər üzrə də müvəffəqiyyətlə davam etdiriləcəyinə əminliyimi ifadə edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2023-cü il*

## Yunanıstan Respublikasının Prezidenti zati-aliləri xanım Katerina Sakellaropuluya

Hörmətli xanım Prezident!

Larisa şəhəri yaxınlığında sərnişin qatarı ilə yük qatarının toqquşması nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu ağır faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Yunanıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

## *Böyük qayıdış:* 44 nəfərdən ibarət 10 ailə Ağalıya çatıb

Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.



AZƏRTAC xəbər verir ki, martın 3-də Abşeron rayonundakı "Zəngilan şəhərciyi"ndən yola salınan keçmiş məcburi köçkünlərdən ibarət köç karvanı Ağalı kəndinə çatıb.

9



## Prezident İlham Əliyev Tofiq Kazımovun 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzaladı

2

## Moskva və Pekindən etiraz

Böyük iyirmilik yekun bəyannamə ilə bağlı razılığa gələ bilmədi

Moskva və Pekin sənədin Rusiyanın Ukraynaya qarşı apardığı müharibəni pisləyən və qoşunlarının Ukrayna ərazisindən dərhal çıxarılmasını tələb edən bəndlərinə qarşı çıxıblar.

Yekun deklarasiyada 24 bənd yer alıb. Rusiya və Çinin üçüncü və dördüncü bəndlərə qarşı çıxdığı məlum olub. Həmin müddəalarda Ukraynada keçirilən xüsusi əməliyyat pislənilir, hərbi əməliyyatların dünya iqtisadiyyatına mənfi təsirindən, beynəlxalq hüquq normalarına riayət edilməsinin zəruriliyindən və nüvə silahından istifadənin yolverilməzliyindən bəhs edilir.




12

## Deprem hekayələri



Prezident İlham Əliyevin tapşırığı ilə Türkiyədə olan Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin çevik xilasetmə qüvvələrinin ölümdən xilas etdiklərinin biri də Ayşə adında qadın idi. Dəstənin üzvləri onun halını xəbər aldılar, ürək-dirək verdilər.

Dağıntılardan çıxarılan yaralı və bu səbəbdən halsız və zəif qadın, xilaskarlarının mehribanlığından, şirin ləhcəsindən onların azərbaycanlı olduqlarını yəqin elədi. Heç nə soruşmadan "Can Azərbaycan, canım qardaşlarım. İlham Əliyevə də salamları göndərirəm", - dedi.

11

## Azərbaycanın sülh missiyası

Xocalıda baş tutan ilk təmas, həmçinin Prezident İlham Əliyevin "Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır və onların taleyini, onların gələcək həyatını hər hansı bir ölkə ilə, o cümlədən Ermənistanla müzakirə etmək fikrində deyilik" kimi açıqlamasının məntiqi nəticəsidir.

Dövlət başçısı Qarabağ ermənilərinin Azərbaycan vətəndaşları olduğunu və erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazır olduğumuzu qeyd edib. "Biz bunu etməyə hazırıq, lakin erməni icmasının Qarabağda doğulmuş və bütün ömrü boyu orada yaşamış nümayəndələri ilə, Qarabağ Rusiyadan rəhbər mövqe tutmaq üçün ixrac edilmiş (exported) şəxslə deyil", - deyə ölkə rəhbəri bildirib.

Azərbaycanın suveren ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin qərargahında Qarabağ bölgəsində yaşayan erməni sakinlərin təmsilçiləri ilə görüş növbəti diplomatik uğur kimi qiymətləndirilməlidir.

Ermənistan tərəfi, həm də bir sıra digər dövlət və beynəlxalq təşkilatlar bu danışıqların Ermənistanla aparılmasında israr edir, hətta Qarabağa status da tələb edirdilər. Azərbaycan isə bu planı elə ilkin mərhələdə pozdu. Hazırkı mərhələdə isə bölgədə ən qısa müddətdə sülhün bərqərar olması çox önəmlidir.

Ölkəmizin dünya miqyasında verdiyi töhfələr hər kəsə məlumdur. Bu baxımdan erməni sakinlərin gələcəkdə Azərbaycan vətəndaşları kimi sakit və təhlükəsiz yaşayacaqlarına heç kəsin şübhəsi olmasın. Prezident uzun müddətdir ki, "Biz elə etməliyik ki, Qarabağda bir daha belə hadisələr baş verməsin" tezisinə söykənərək ikiəsrlik Qarabağ problemini sıfırlayıb, gələcək nəsillərə və Azərbaycan dövlətçiliyinə mühüm töhfə verib".

10

# Tofiq Kazımovun 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü ildə Azərbaycanın görkəmli teatr rejissoru, dövlət mükafatları laureatı, tanınmış pedaqoq, Xalq artisti Tofiq Səməd Mənsur oğlu Kazımovun anadan olmasının 100 ili tamam olur.

Orijinal yaradıcılıq dəst-xəttinə malik fitri istedadlı rejissor kimi Tofiq Kazımov Azərbaycan teatrının repertuarını yüksək bədii-estetik meyarlı səhnə əsərləri ilə daha da zənginləşdirmişdir. Sənətkar özünün teatr məktəbini qurmağa müvəffəq olmuş və həmin məktəb ölkə teatrını irəli apararaq ona yeni nailiyyətlər qazandırmışdır. Tofiq Kazımov milli və dünya dramaturji irsinin diqqətəlayiq nümunələrinə müasirlik kontekstində verdiyi mükəmməl quruluşlarla mədəniyyət salnaməmizə parlaq səhifələr yazmışdır. Onun hazırladığı və ictimai-mənəvi proseslərin axarında zamanın ritmini və insanların təfəkkür tərzini dolğun təcəssüm etdirən novator tamaşalar ideya-bədii bütövlüyü ilə seçilərək teatr ictimaiyyəti tərəfindən həmişə böyük maraqla qarşılanmış, respublikanın mədəni həyatında hadisəyə çevrilmişdir. Sənət xəzinəmizin qızıl fondunda layiqli yer tutan bu səhnə əsərləri bir çox məşhur aktyorların formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan teatrının inkişafı və təbliği işinə dəyərli töhfələr vermiş görkəmli rejissor Tofiq Kazımovun anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq artisti Tofiq Kazımovun 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

---

### Azərbaycan Respublikası Prezidentinin "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2002-ci il 6 may tarixli 697 nömrəli, "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2003-cü il 27 yanvar tarixli 847 nömrəli, "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında" 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli, "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli 4 nömrəli, "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 fevral tarixli 32 nömrəli, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 aprel tarixli 48 nömrəli, "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 5 noyabr tarixli 141 nömrəli, "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 4 avqust tarixli 272 nömrəli, "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 16 noyabr tarixli 312 nömrəli və "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2005-ci il 26 dekabr tarixli 341 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 264; 2004, № 1, maddə 19; 2006, № 9, maddə 743; 2007, № 12, maddə 1240; 2019, № 4, maddə 629; 2020, № 4, maddə 397; 2021, № 6 (I kitab), maddə 568; 2022, № 5, maddə 476) 2.5-ci, 2.6-cı, 2.8-ci, 2.9-cu, 2.11-ci və 2.12-ci bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 yanvar tarixli 847 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 1, maddə 39) 2-ci hissəsinin üçüncü və dördüncü abzaslarında "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 486; 2007, № 5, maddə 459; 2008, № 6, maddə 498, № 8, maddə 721; 2015, № 7, maddə 837; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 353; 2019, № 2, maddə 209, № 3, maddə 410, № 11, maddə 1701; 2021, № 1, maddə 41; 2022, № 8, maddələr 862, 874) ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın 17.3-cü bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 noyabr tarixli 4 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 11, maddə 634; 2006, № 9, maddə 743; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2021, № 1, maddə 42) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

5. "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 32 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 70; 2021, № 6 (I kitab), maddə 571) 2.3-cü bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

6. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228; 2005, № 8, maddə 708, № 9, maddə 801, № 12, maddə 1103; 2006, № 12, maddə 1034; 2008, № 2, maddə 54; 2012, № 1, maddə 6; 2013, № 12, maddə 1529; 2014, № 2, maddə 103; 2016, № 3, maddə 465, № 9, maddə 1464, № 10, maddə 1637; 2017, № 5, maddə 846, № 9, maddə 1653, № 10, maddə 1803, № 12 (I kitab), maddə 2319; 2018, № 12 (I kitab), maddə 2614; 2019, № 2, maddə 211; 2020, № 8, maddə 1029, № 11, maddələr 1360, 1362; 2021, № 11, maddə 1400; 2022, № 8, maddə 840; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1958 nömrəli Fərmanı) 2.7-1-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

7. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 141 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 905; 2007, № 6, maddə 601; 2016, № 4, maddə 677; 2018, № 12 (I kitab), maddə 2543) 3.5-ci bəndində "7.1-ci" sözləri "7.2-ci" sözləri ilə, "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

8. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 704; 2013, № 8, maddə 915; 2014, № 11, maddə 1412; 2017, № 3, maddə 353; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 6 dekabr tarixli 1895 nömrəli Fərmanı) 2.9-cu bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

9. "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 noyabr tarixli 312 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1007; 2011, № 7, maddə 633; 2017, № 5, maddə 827; 2019, № 7, maddə 1220; 2020, № 7, maddə 887; 2022, № 5, maddə 471) 2.5-ci və 2.6-cı bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1110; 2008, № 6, maddə 498; 2013, № 12, maddə 1508; 2014, № 9, maddə 1027; 2016, № 3, maddə 469, № 8, maddə 1384; 2017, № 8, maddə 1521; 2018, № 8, maddə 1677; 2022, № 4, maddə 305, № 5, maddə 471, № 9, maddə 1028) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının tərkibi"nin "Şuranın üzvləri" hissəsində "təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

---

### Azərbaycan Respublikası Prezidentinin "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 8 dekabr tarixli 1206 nömrəli, "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2021-ci il 17 iyun tarixli 1367 nömrəli, "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun yaradılması haqqında" 2021-ci il 14 iyul tarixli 1399 nömrəli və "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" 2022-ci il 23 iyun tarixli 1719 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1206 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1468) ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın "İnformasiya sisteminin və ehtiyatının adı" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 iyun tarixli 1367 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 582) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.2-ci bənddə "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Təhsil Tələbə Krediti Fondunun Nizamnaməsi"nin 1.2-ci bəndində və 3.4-cü bəndində (birinci halda) "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə, 3.7-ci, 3.9-cu, 3.19-cu bəndlərində və 3.23.7-ci yarımbəndində "təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 14 iyul tarixli 1399 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 733) 2.2.1-ci yarımbəndində və 3.2-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Gürcüstanın Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 23 iyun tarixli 1719 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 603) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

---

### Azərbaycan Respublikası Prezidentinin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli 678 nömrəli, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 1998-ci il 30 mart tarixli 692 nömrəli, "Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 13 iyun tarixli 721 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 22 noyabr tarixli 24 nömrəli, "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında" 1999-cu il 3 yanvar tarixli 60 nömrəli, "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 12 mart tarixli 115 nömrəli, "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 15 aprel tarixli 122 nömrəli, "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 8 iyul tarixli 149 nömrəli, "Dövlət gənclər siyasəti haqqında" 1999-cu il 29 iyul tarixli 169 nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 30 avqust tarixli 188 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 fevral tarixli 678 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 2, maddə 92; 2017, № 3, maddə 353) 6-cı hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176; 2002, № 8, maddə 478; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2007, № 11, maddə 1117; 2008, № 8, maddə 719; 2010, № 10, maddə 845; 2015, № 5, maddə 541; 2017, № 3, maddə 366, № 12 (I kitab), maddə 2277; 2018, № 12 (I kitab), maddə 2563) 2-ci hissəsinin onuncu abzasında "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

3. "Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 721 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 382; 2008, № 6, maddə 498; 2018, № 6, maddə 1215) 2.3-cü bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

4. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666; 2001, № 7, maddə 459; 2003, № 10, maddələr 546, 571; 2004, № 8, maddə 617, № 12, maddə 1005; 2006, № 9, maddə 743; 2008, № 8, maddə 719; 2009, № 4, maddə 226, № 8, maddə 630; 2010, № 7, maddə 606; 2011, № 6, maddə 510; 2012, № 5, maddə 423, № 11, maddə 1079; 2014, № 9, maddə 1043; 2015, № 2, maddələr 110, 140, № 6, maddə 707, № 10, maddə 1116; 2016, № 3, maddə 456, № 4, maddələr 662, 666, № 6, maddə 1062, № 11, maddə 1839; 2017, № 5, maddə 758, № 8, maddə 1521; 2018, № 2, maddələr 169, 197, № 4, maddə 677, № 6, maddə 1241, № 7 (I kitab), maddələr 1466, 1493; 2019, № 1, maddə 96, № 3, maddə 420, № 7, maddə 1228, № 8, maddələr 1402, 1406; 2020, № 5, maddə 561, № 7, maddə 885; 2021, № 4, maddə 316; 2022, № 8, maddə 860) 2.13-cü və 2.22-ci bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 3 yanvar tarixli 60 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 1, maddə 13; 2011, № 2, maddə 85; 2017, № 7, maddə 1350, № 9, maddə 1647; 2019, № 3, maddə 411; 2021, № 2, maddə 123) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2-ci hissədə "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Nizamnaməsi"nin 4-cü hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

6. "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 115 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 167; 2002, № 8, maddə 482; 2006, № 9, maddə 743; 2007, № 6, maddə 601; 2019, № 12, maddə 1933; 2021, № 1, maddə 35) 2.5-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

7. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231; 2000, № 3 (I kitab), maddə 159; 2008, № 7, maddə 611, № 8, maddə 719, № 10, maddə 896; 2009, № 2, maddə 71, № 12, maddələr 977, 987; 2011, № 7, maddə 633; 2012, № 6, maddə 545; 2014, № 7, maddə 791, № 11, maddə 1408, № 12, maddə 1570; 2015, № 1, maddə 20; 2016, № 6, maddə 1050; 2018, № 10, maddə 2007, № 12 (I kitab), maddə 2615; 2019, № 2, maddə 206, № 5, maddə 844; 2020, № 8, maddə 1037, № 11, maddə 1348; 2022, № 6, maddə 596, № 8, maddə 863; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 noyabr tarixli 1893 nömrəli Fərmanı) 2-ci hissəsinin on ikinci abzasında "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

8. "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 8 iyul tarixli 149 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 411; 2004, № 12, maddə 1005; 2017, № 8, maddə 1521; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1930 nömrəli Fərmanı) 2-ci hissəsinin yeddinci abzasında "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli 169 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 431; 2001, № 7, maddə 459; 2007, № 5, maddə 459; 2010, № 2, maddə 80; 2017, № 5, maddə 802; 2019, № 3, maddə 406; 2020, № 4, maddə 397, № 8, maddə 1037; 2022, № 5, maddə 476) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı"nın II bölməsinin 3 5-ci, III bölməsinin 4-cü, IV bölməsinin 1-ci, V bölməsinin 3-cü, 4-cü və 6-cı, VI və VII bölmələrinin 4-cü, VIII bölməsinin 1-ci və IX bölməsinin 4-cü hissələrinin "İcraçı təşkilatlar" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

10. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498; 2001, № 7, maddə 459; 2002, № 8, maddə 487; 2006, № 9, maddə 743; 2007, № 5, maddə 459, № 6, maddə 611; 2008, № 3, maddə 170; 2017, № 5, maddə 767; 2018, № 8, maddə 1691; 2020, № 7, maddələr 861, 877; 2021, № 11, maddə 1212) 2.3-cü, 2.6-cı və 2.8-ci bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

---

### Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2019-cu il 29 dekabr tarixli 907 nömrəli, "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 25 fevral tarixli 940 nömrəli, "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 27 fevral tarixli 946 nömrəli, "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" 2020-ci il 12 iyun tarixli 1055 nömrəli və "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 30 iyul tarixli 1119 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli 907 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1950; 2020, № 12 (I kitab), maddə 1469; 2021, № 2, maddə 126) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2-ci bənddə "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi"nin 1.2-ci bəndində və 4.2-ci bəndinin ikinci cümləsində "Təhsil" sözü müvafiq olaraq "Elm və Təhsil" və "elm və təhsil" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 25 fevral tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 98) ilə təsdiq edilmiş "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın 7-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 104, № 12 (I kitab), maddə 1467; 2021, № 4, maddə 315) ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın 2.1.5-ci yarımbəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 iyun tarixli 1055 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 697) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899; 2021, № 5, maddə 443, № 6 (I kitab), maddə 584, № 9, maddə 984; 2022, № 1, maddə 21, № 3, maddə 224, № 5, maddə 468, № 8, maddə 882) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin Siyahısı"nın 29-cu hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

# Azərbaycan Respublikası Təhsil Nazirliyinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi adlandırılması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi sərəncamlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Moskva şəhərinin Təhsil Komitəsi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 636 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 1, maddə 55) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 noyabr tarixli 692 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 432; 2002, № 1, maddə 56; 2003, № 9, maddə 487; 2006, № 7, maddə 588; 2007, № 6, maddə 603; 2008, № 11, maddə 969; 2014, № 2, maddə 112, № 5, maddə 477; 2016, № 8, maddə 1384; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 3688 nömrəli Sərəncamı) 1-ci hissəsində "təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli 832 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 409; 2004, № 1, maddə 19; 2006, № 9, maddə 743; 2020, № 8, maddə 1064; 2021, № 1, maddə 81) ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın 7-ci, 8-ci, 10-cu və 12-ci hissələrinin "İcra orqanları" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 17 sentyabr tarixli 895 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 582; 2010, № 2, maddə 80; 2016, № 6, maddə 1028; 2019, № 5, maddə 911; 2020, № 8, maddə 1064; 2021, № 6 (I kitab), maddə 607; 2022, № 8, maddə 909) ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın II hissəsinin 10-cu və 13-cü bəndlərinin, III hissəsinin 7-ci və 8-ci bəndlərinin "İcra orqanları" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 134 saylı Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 253; 2005, № 4, maddə 299; 2008, № 6, maddə 496; 2011, № 7, maddə 655; 2013, № 6, maddə 684; 2017, № 5, maddə 886, № 11, maddə 2071; 2019, № 3, maddələr 442, 448; 2021, № 2, maddə 155; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3588 nömrəli, 30 dekabr tarixli 3697 nömrəli sərəncamları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Nizamnaməsi"nin 1.4-cü bəndində, 1.5-ci bəndinin ikinci abzasında, 1.6-cı bəndində, 4.10-cu bəndinin 6-cı abzasında, 5.2-ci və 5.12-ci bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında imzalanmış "İnkişaf üçün kredit haqqında Saziş"in (Təhsil Sahəsində İslahatlar Layihəsi) təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 23 iyul tarixli 203 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 456) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

7. "Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 346 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 185) 1-4-cü hissələrində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

8. "Avropa Şurasının fəaliyyətinə və Azərbaycan Respublikası ilə Avropa Şurası arasındakı əməkdaşlığa dair məlumatların yayılması barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 mart tarixli 364 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 203; 2006, № 9, maddə 743; 2021, № 1, maddə 81) 4-cü hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

9. "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 noyabr tarixli 569 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 11, maddə 805; 2006, № 9, maddə 743; 2021, № 7, maddə 809) 1-ci hissəsində "təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 7 aprel tarixli 1193 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 4, maddə 184) ilə təsdiq edilmiş "Avropa Sosial Xartiyasında nəzərdə tutulmuş normaların tətbiqi üzrə Dövlət Proqramı"nın "DÖVLƏT PROQRAMI ÜZRƏ FƏALİYYƏT MATRİSASI"nın III hissəsinin 3.2-ci, 3.4-cü və 3.6-cı bəndlərinin "İcraçılar" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

11. "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf üçün kredit haqqında Saziş"in (Təhsil Sektorunun İnkişafı Layihəsi) təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 22 oktyabr tarixli 1351 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 590) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

12. "2004-cü il martın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 may tarixli 217 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 359) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 540; 2006, № 9, maddə 743; 2007, № 2, maddə 87, № 10, maddə 1011; 2008, № 3, maddə 168; 2009, № 6, maddə 424; 2011, № 2, maddələr 85, 134; 2017, № 3, maddə 353; 2019, № 5, maddə 911; 2021, № 1, maddə 77, № 5, maddə 495) ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın 2.19-cu və 3.2-ci bəndlərinin "İcraçılar" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

14. "Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 17 sentyabr tarixli 394 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 712; 2005, № 4, maddə 300, № 6, maddə 494; 2007, № 10, maddə 1009; 2009, № 7, maddə 589; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384; 2018, № 8, maddə 1677; 2019, № 2, maddə 294; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 3688 nömrəli Sərəncamı) 1-ci hissəsində "təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 838; 2007, № 8, maddə 769; 2013, № 11, maddə 1449; 2014, № 5, maddə 477; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384; 2020, № 9, maddə 1185; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 3684 nömrəli Sərəncamı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

15.1. "Alternativ (bərpa olunan) enerji mənbələrindən istifadə edilməsi üzrə Tədbirlər" hissəsinin 4-cü bəndinin "Əsas icraçılar" sütununda "TN" akronimi "ETN" akronimi ilə əvəz edilsin;

15.2. "Akronimlər" hissəsində "TN - Azərbaycan Respublikasının Təhsil Nazirliyi" sözləri "ETN - Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 noyabr tarixli 517 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 940; 2005, № 7, maddə 596; 2006, № 9, maddə 743; 2007, № 2, maddə 87; 2008, № 3, maddə 168; 2009, № 4, maddə 226; 2010, № 2, maddə 80; 2011, № 2, maddə 85; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1464; 2020, № 8, maddə 1064; 2021, № 1, maddə 81) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"nın "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək Tədbirlər" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

16.1. 1.1-ci bəndin "İcraçılar" sütununda hər iki halda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin;

16.2. 2.2-ci bəndin, 2.3.14-cü, 2.3.15-ci, 2.4.2-ci, 3.2.3-cü, 3.2.4-cü, 3.2.6-cı yarımbəndlərin, 4.4-cü, 4.5-ci bəndlərin, 5.1.17-ci yarımbəndin, 8.21-ci və 8.25-ci bəndlərin "İcraçılar" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

17. "Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyun tarixli 834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 493, № 10, maddə 968; 2006, № 7, maddə 588, № 9, maddə 743; 2007, № 5, maddə 459; 2009, № 4, maddə 233; 2010, № 2, maddə 80, № 7, maddə 620; 2012, № 12, maddə 1291; 2013, № 3, maddə 292; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2015, № 8, maddə 957; 2016, № 5, maddə 861, № 9, maddə 1518; 2017, № 11, maddə 2124; 2018, № 8, maddələr 1677, 1715; 2019, № 2, maddə 294; 2020, № 2, maddə 123; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 3688 nömrəli Sərəncamı) 1-ci hissəsində "Təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

18. "YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 826; 2006, № 9, maddə 743; 2014, № 9, maddə 1027; 2015, № 3, maddə 286; 2016, № 7, maddə 1282; 2017, № 8, maddə 1521; 2018, № 8, maddə 1779; 2019, № 11, maddə 1751; 2020, № 2, maddə 170; 2022, № 5, maddə 539) 3-cü hissəsində "təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli 1413 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 342; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1464; 2018, № 2, maddə 273; 2021, № 1, maddə 77) ilə təsdiq edilmiş "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"nın 3.1.11-ci, 3.2.5-ci, 3.3.1-ci, 3.4.4-cü və 3.4.5-ci yarımbəndlərinin "İcraçılar" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

20. "Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 4 iyul tarixli 1554 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 602; 2009, № 2, maddə 74, № 6, maddə 424; 2012, № 2, maddə 137; 2014, № 2, maddə 112, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1590; 2018, № 8, maddə 1677; 2020, № 3, maddə 265; 2022, № 4, maddə 347, № 9, maddə 1053) 1-ci hissəsində "Təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

21. "Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 26 avqust tarixli 1640 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 725; 2009, № 7, maddə 589; 2010, № 9, maddə 773; 2012, № 2, maddə 129; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384; 2018, № 1, maddə 79, № 3, maddə 478; 2021, № 1, maddə 77; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 3688 nömrəli Sərəncamı) 1-ci hissəsində "təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

22. "Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 sentyabr tarixli 1680 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 782; 2009, № 1, maddə 17, № 7, maddə 589; 2012, № 2, maddə 133; 2014, № 2, maddə 112, № 6, maddə 644; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 11, maddə 2091; 2018, № 8, maddə 1677; 2020, № 3, maddə 257; 2022, № 5, maddə 535, № 9, maddə 1038) 1-ci hissəsində "Təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 481; 2005, № 5, maddə 403; 2008, № 3, maddə 175, № 11, maddə 970; 2009, № 7, maddə 533, № 11, maddə 881, № 12, maddə 983; 2011, № 2, maddə 85, № 12, maddə 1138; 2012, № 11, maddə 1110; 2013, № 2, maddə 113; 2014, № 4, maddə 367, № 11, maddə 1416; 2018, № 2, maddə 190; 2020, № 7, maddə 889) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 7.10-cu bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

---

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" 2010-cu il 10 fevral tarixli 220 nömrəli, "Tələbə-məzun" dövlət elektron məlumat sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi və Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 6 aprel tarixli 219 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi haqqında" 2010-cu il 23 fevral tarixli 225 nömrəli, "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2010-cu il 4 iyun tarixli 276 nömrəli, "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" 2011-ci il 15 fevral tarixli 382 nömrəli, "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" 2011-ci il 20 aprel tarixli 414 nömrəli və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" 2012-ci il 13 fevral tarixli 593 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 220 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 84; 2014, № 5, maddə 477, № 12, maddə 1564; 2015, № 5, maddə 527; 2016, № 8, maddə 1384; 2017, № 5, maddələr 785, 801, 831; 2019, № 3, maddə 406; 2020, № 4, maddə 413) 4.2-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. "Tələbə-məzun" dövlət elektron məlumat sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi və Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 6 aprel tarixli 219 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 23 fevral tarixli 225 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 89, № 7, maddə 621; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2015, № 4, maddə 373, № 6, maddə 704, № 7, maddə 836; 2016, № 8, maddə 1384; 2017, № 5, maddə 805, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2306; 2020, № 10, maddə 1249; 2022, № 5, maddə 470) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissədə "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Tələbə-məzun" dövlət elektron məlumat sistemi haqqında Əsasnamə"nin 6.8-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 491; 2011, № 11, maddə 995; 2013, № 9, maddə 1048; 2014, № 9, maddə 1060, № 10, maddə 1177; 2015, № 2, maddə 117; 2016, № 5, maddə 867, № 11, maddə 1798; 2017, № 5, maddələr 777, 818; 2018, № 12 (I kitab), maddə 2586; 2019, № 6, maddə 1029; 2020, № 8, maddə 1024; 2021, № 2, maddə 130, № 6 (I kitab), maddə 567; 2022, № 7, maddə 749, № 8, maddə 844) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 11.4-cü bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

4. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 86; 2016, № 2 (II kitab), maddə 245; 2021, № 1, maddə 38, № 6 (I kitab), maddə 571; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1931 nömrəli Fərmanı) 1.10-cu bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

5. "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli 414 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 4, maddə 283; 2021, № 6 (I kitab), maddə 571) 1.4-cü bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

6. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12 (I kitab), maddələr 2282, 2294; 2018, № 11, maddə 2258; 2019, № 5, maddə 847; 2020, № 7, maddə 878, № 11, maddə 1349; 2021, № 1, maddə 36; 2022, № 4, maddələr 314, 324, № 8, maddə 871; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 yanvar tarixli 1996 nömrəli Fərmanı) 5.9-cu bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

---

Azərbaycan Respublikası Prezidentinin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 18 iyul tarixli 213 nömrəli, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 24 avqust tarixli 233 nömrəli, "Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 29 avqust tarixli 253 nömrəli, "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılması haqqında Protokolun təsdiq edilməsi barədə" 2018-ci il 4 oktyabr tarixli 296 nömrəli, "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Bolqarıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" 2018-ci il 18 dekabr tarixli 405 nömrəli, "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 21 yanvar tarixli 482 nömrəli və "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin və "e-sosial" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2019-cu il 15 aprel tarixli 634 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1499, № 11, maddə 2239; 2019, № 7, maddə 1217; 2020, № 7, maddə 861; 2021, № 6 (I kitab), maddə 573, № 8, maddə 916) 2.5-ci, 2.9-cu və 2.14-cü bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin;

2. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1683; 2019, № 7, maddə 1217; 2020, № 5, maddə 561, № 9, maddə 1142; 2021, № 7, maddələr 722, 725; 2022, № 1, maddə 23, № 5, maddə 462) 2.9-cu və 2.16-cı bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 avqust tarixli 253 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1703; 2020, № 4, maddə 397, № 12 (I kitab), maddə 1483) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nın 9.2-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılması haqqında Protokolun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 296 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 1996) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Bolqarıstan Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 405 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2562) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

6. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 yanvar tarixli 482 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 72; 2020, № 3, maddə 242; 2021, № 6 (I kitab), maddə 573) 3.11-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634; 2020, № 4, maddə 417; 2021, № 5, maddə 445, № 6 (I kitab), maddə 566, № 8, maddə 919, № 10, maddə 1114, № 12, maddə 1406; 2022, № 5, maddə 462, № 8, maddə 848) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin 4.1.6-cı yarımbəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

---

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" 2005-ci il 28 dekabr tarixli 344 nömrəli, "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyanın tərkibinə dair bəzi məsələlər haqqında" 2007-ci il 21 iyun tarixli 590 nömrəli, "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2007-ci il 21 iyun tarixli 596 nömrəli, "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2007-ci il 3 iyul tarixli 606 nömrəli, "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2007-ci il 19 dekabr tarixli 684 nömrəli, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2009-cu il 29 may tarixli 97 nömrəli və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 27 avqust tarixli 147 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 dekabr tarixli 344 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1113; 2006, № 9, maddə 743; 2021, № 1, maddə 42) 1.2-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyanın tərkibinə dair bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 iyun tarixli 590 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 603; 2010, № 2, maddə 91; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 1, maddə 51, № 8, maddə 1521; 2018, № 9, maddə 1840; 2022, № 5, maddə 469) 1-ci hissəsində "təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

3. "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 iyun tarixli 596 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 609; 2017, № 3, maddə 353; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 yanvar tarixli 1979 nömrəli Fərmanı) 2.4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"2.4. həmin Qanunun 9.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini birinci halda Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, ikinci halda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir.".

4. "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli 606 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 713; 2019, № 7, maddə 1219; 2021, № 6 (I kitab), maddə 571) 2.2-ci və 2.5-ci bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

5. "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 dekabr tarixli 684 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1234; 2013, № 11, maddə 1326) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin altıncı hissəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.".

6. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 610; 2009, № 10, maddə 779; 2016, № 4, maddə 661, № 6, maddə 1064, № 11, maddə 1840; 2017, № 6, maddə 1083; 2018, № 12 (I kitab), maddə 2600; 2019, № 5, maddə 838, № 8, maddə 1408; 2020, № 5, maddə 544; 2021, № 1, maddə 17, № 6 (I kitab), maddə 593) 2.2-3-cü bəndində (hər iki halda) "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

7. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 329; 2012, № 4, maddə 294; 2013, № 8, maddə 908; 2015, № 9, maddə 987; 2017, № 6, maddə 1097; 2019, № 5, maddə 840; 2021, № 6 (I kitab), maddə 578; 2022, № 3, maddə 216) 2.4-cü və 2.5-ci bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

8. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 147 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 623; 2015, № 8, maddə 909; 2016, № 7, maddə 1254, № 10, maddə 1645; 2017, № 12 (I kitab), maddə 2296; 2018, № 6, maddə 1224, № 7 (I kitab), maddə 1464; 2021, № 6 (I kitab), maddə 571, № 12, maddə 1426; 2022, № 8, maddə 861) 2.4-cü, 2.5-ci, 2.12-ci və 2.14-cü bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında" 1997-ci il 30 aprel tarixli 560 nömrəli, "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin təsis edilməsi haqqında" 2002-ci il 7 avqust tarixli 1003 nömrəli, "Nüvə texnologiyalarından dinc məqsədlərlə istifadə üçün Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tabeliyində "Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2014-cü il 8 may tarixli 442 nömrəli, "Azərbaycan Respublikasının fövqəladə hallar atlası"nın nəşri haqqında" 2016-cı il 2 mart tarixli 1843 nömrəli, "Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkının yaradılması haqqında" 2016-cı il 8 noyabr tarixli 2425 nömrəli, "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2017-ci il 27 noyabr tarixli 3406 nömrəli, "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 9 fevral tarixli 3657 nömrəli, "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 12 fevral tarixli 3660 nömrəli və "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 13 fevral tarixli 3668 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 512; 2007, № 9, maddə 871; 2008, № 9, maddə 797; 2010, № 6, maddə 501; 2020, № 3, maddə 305; 2022, № 5, maddə 539) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Azərbaycan Respublikasının səhiyyə naziri" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının elm və təhsil naziri";

1.2. "Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti" sözləri çıxarılsın.

2. "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 7 avqust tarixli 1003 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 502) 1-ci hissəsində ", Təbii Ehtiyatlar İnstitutunu, Bioresurslar İnstitutunu, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanasını" sözləri "və Əlyazmalar Fondunu" sözləri ilə əvəz edilsin.

3. "Nüvə texnologiyalarından dinc məqsədlərlə istifadə üçün Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tabeliyində "Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 may tarixli 442 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 506; 2016, № 2 (II kitab), maddə 347; 2019, № 3, maddə 469; 2020, № 5, maddə 602; 2022, № 8, maddə 914) 8-ci hissəsində "Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının fövqəladə hallar atlası"nın nəşri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 mart tarixli 1843 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 486; 2017, № 8, maddə 1521; 2018, № 10, maddə 2034; 2022, № 5, maddə 538, № 8, maddə 901) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. "Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti" abzasından əvvəl "Azərbaycan Respublikasının elm və təhsil naziri" abzası əlavə edilsin;

4.2. "Azərbaycan Milli Elmlər Akademiyasının akademik H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru" sözləri ilə əvəz edilsin;

4.3. "Azərbaycan Respublikasının təhsil naziri" sözləri "Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini" sözləri ilə əvəz edilsin;

4.4. "Azərbaycan Milli Elmlər Akademiyasının akademik A.Qarayev adına Fiziologiya İnstitutunun direktoru" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik A.Qarayev adına Fiziologiya İnstitutunun direktoru" sözləri ilə, "Azərbaycan Milli Elmlər Akademiyası Zoologiya İnstitutunun direktoru" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutunun direktoru" sözləri ilə və "Azərbaycan Milli Elmlər Akademiyası Botanika İnstitutunun direktoru" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun direktoru" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2425 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1864; 2019, № 5, maddə 817; 2020, № 5, maddə 602; 2022, № 8, maddə 901) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. "YT Park"a münasibətdə səlahiyyətli orqanın funksiyalarını Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi həyata keçirir.

5.2. 4-cü hissədə, 6.1-ci, 6.2-ci və 8.7-ci bəndlərdə ismin müvafiq hallarında "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

5.3. 6-cı hissədə "AMEA Yüksək Texnologiyalar Parkı" sözləri "ETN Yüksək Texnologiyalar Parkı" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli 3406 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2115; 2018, № 11, maddə 2287; 2019, № 5, maddə 909; 2021, № 1, maddə 79; 2022, № 5, maddə 532) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 8.2.2-ci, 8.2.4-cü, 8.4.2-ci və 8.4.4-cü yarımbəndlərin "İcraçılar" sütununda "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

6.2. 8.2.3-cü yarımbəndin "İcraçılar" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 fevral tarixli 3657 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 260, № 11, maddə 2287; 2019, № 5, maddə 909; 2021, № 11, maddə 1235; 2022, № 8, maddə 901) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 8.2.2-ci, 8.2.4-cü, 8.2.5-ci və 8.4.6-cı yarımbəndlərin "İcraçılar" sütununda "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

7.2. 8.2.3-cü yarımbəndin "İcraçılar" sütununda "Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 fevral tarixli 3660 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 263, № 11, maddə 2287; 2019, № 4, maddə 698, № 5, maddə 909; 2021, № 11, maddə 1235; 2022, № 8, maddə 912) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

8.1. 8.2.2-ci yarımbəndin "İcraçılar" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin;

8.2. 8.2.3-cü, 8.2.4-cü və 8.4.2-ci yarımbəndlərin "İcraçılar" sütununda "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 fevral tarixli 3668 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 271, № 11, maddə 2287; 2019, № 5, maddə 909; 2021, № 11, maddə 1235) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 8.2.3-cü və 8.4.2-ci yarımbəndlərinin "İcraçılar" sütununda "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

Azərbaycan Respublikası Prezidentinin "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 2014-cü il 16 aprel tarixli 152 nömrəli, "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanının ləğvi haqqında" 2014-cü il 14 may tarixli 162 nömrəli, "ADA" Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2014-cü il 8 iyul tarixli 211 nömrəli, "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Monteneqronun Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" 2014-cü il 17 noyabr tarixli 359 nömrəli, "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2014-cü il 26 dekabr tarixli 432 nömrəli, "Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyasının yeni tərkibinin müəyyən edilməsi haqqında" 2015-ci il 8 aprel tarixli 499 nömrəli, "Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2015-ci il 13 avqust tarixli 583 nömrəli, "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında" 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli və "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 3 fevral tarixli 759 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 368; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384; 2021, № 1, maddə 30; 2022, № 8, maddə 850) 2.11-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 162 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 475; 2016, № 8, maddə 1384; 2018, № 4, maddə 655, № 6, maddə 1213; 2019, № 5, maddə 821) 1.7-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 211 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 793; 2017, № 5, maddələr 788, 802, № 7, maddə 1364; 2019, № 2, maddə 221, № 3, maddə 402, № 7, maddə 1230; 2020, № 2, maddə 103; 2021, № 2, maddə 123) ilə təsdiq edilmiş "ADA" Universitetinin Nizamnaməsi"nin 2.6-cı bəndinin üçüncü abzasının ikinci cümləsində "təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Monteneqronun Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 359 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1399) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1585; 2016, № 7, maddə 1250, № 11, maddə 1803; 2017, № 5, maddələr 789, 802, № 7, maddə 1366; 2018, № 4, maddə 697; 2019, № 3, maddə 402, № 5, maddə 856, № 7, maddə 1230; 2020, № 2, maddə 103, № 6, maddə 698, № 7, maddə 868; 2021, № 1, maddə 36, № 2, maddə 123) ilə təsdiq edilmiş "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin 1.3-cü, 4.13-cü bəndlərində, 4.26-cı bəndinin beşinci cümləsində, 6.3-cü bəndinin dördüncü cümləsində, 6.6-cı bəndinin üçüncü cümləsində, 6.21-ci bəndində və 4.9.3-cü yarımbəndinin birinci cümləsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyasının yeni tərkibinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 8 aprel tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 378; 2017, № 4, maddə 561; 2018, № 5, maddə 959; 2021, № 4, maddə 324; 2022, № 5, maddə 472) 1-ci hissəsində "təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 avqust tarixli 583 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 912; 2016, № 11, maddə 1803; 2017, № 7, maddə 1368; 2019, № 5, maddə 847; 2020, № 6, maddə 698; 2021, № 2, maddə 125; 2022, № 3, maddə 215) ilə təsdiq edilmiş "Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin Nizamnaməsi"nin 1.5-ci, 4.9-cu bəndlərində və 4.13-cü bəndinin birinci cümləsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1126; 2016, № 12, maddə 2068; 2017, № 8, maddə 1521; 2018, № 12 (I kitab), maddələr 2549, 2602; 2022, № 5, maddə 473) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların Siyahısı"nın 5-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

9. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, maddə 223; 2017, № 7, maddə 1343; 2018, № 1, maddə 44, № 7 (I kitab), maddə 1458, № 8, maddə 1705; 2019, № 8, maddə 1409; 2022, № 8, maddə 847) 2.7.1-ci və 2.7.2-ci yarımbəndlərinin ikinci abzaslarında "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

# Qərbi Azərbaycan İcması AŞ PA-nı Ermənistandan qovulmuş azərbaycanlıların hüququ üzrə monitorinqə başlamağa çağırır

Qərbi Azərbaycan İcması Avropa Şurası Parlament Assambleyasını Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtması hüququ üzrə monitorinqə başlamağa çağırıb.

Bu barədə AZƏRTAC-a icmanın Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Ermənistanın azərbaycanlıları ərazisindən qovması, onların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmalarına imkan verməməsi bu ölkənin insan hüquqları sahəsində Avropa Şurası çərçivəsində götürdüyü, o cümlədən Avropa İnsan Hüquqları Konvensiyası və Milli Azlıqların Qorunması üzrə Çərçivə Konvensiyasından irəli gələn öhdəliklərinin ciddi şəkildə pozulmasıdır.

Qərbi Azərbaycan İcması hesab edir ki, Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsi Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) bu ölkənin üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməsi üzrə monitorinq prosedurunun predmeti olmalıdır.

Bütün bunları nəzərə alaraq, Qərbi Azərbaycan İcması Avropa Şurasına Üzv Dövlətlər Tərəfindən Öhdəliklərin yerinə Yetirilməsi üzrə AŞ PA Komitəsinin (Monitorinq Komitəsi) Ermənistan üzrə həmməruzəçiləri Kimmo Kilyunenə və Boriana Eberqə məktub göndərərək, onları Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququnun təmin edilməsi sahəsində Ermənistanın öhdəliyini yerinə yetirməsi üzrə monitorinq proseduruna başlamağa çağırıb.

Monitorinq proseduru çərçivəsində bu məsələyə spesifik şəkildə baxmaq Monitorinq Komitəsinin vəzifəsi olmaqla yanaşı, insan hüquqlarının universal və effektiv şəkildə tanınmasına, onlara riayət edilməsinə, eləcə də davamlı sülh və təhlükəsizliyin bərqərar edilməsinə böyük töhfə olardı.

Qeyd olunub ki, icma bu mövzuda AŞ PA Monitorinq Komitəsi ilə dialoqa hazırdır.

# "Dağları aşarkən: Qərbi Azərbaycana dinc və hüquqi qayıdış" mövzusunda dinləmə keçirilib

Martın 3-də Milli Məclisin İnsan hüquqları komitəsinin təşkilatçılığı ilə "Dağları aşarkən: Qərbi Azərbaycana dinc və hüquqi qayıdış" mövzusunda ictimai dinləmə keçirilib. Dinləmədə Milli Məclisin deputatları, alim və tədqiqatçılar, QHT nümayəndələri iştirak ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə mövzuya həsr olunmuş videoçarx nümayiş etdirilib. Burada Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün bərpası, soydaşlarımızın öz doğma torpaqlarına qayıtmaları ilə bağlı vaxtilə söylədiyi fikirlər, onun bu istiqamətdə gördüyü işlər, keçirdiyi görüşlərə dair kadrlar öz əksini tapıb.

Komitə sədri Zahid Oruc bildirib ki, Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcması ilə görüşündən sonra ictimai fikirdə köklü dəyişikliklər baş verir. Dövlət başçısının tarixi missiyasının dövlətçiliyimizi həm coğrafi, həm də mənəvi yaddaşda birləşdirmək olduğunu, İrəvana, Göyçə mahalına, Zəngəzura qayıdışın qısa vaxtda mümkün olacağını söyləyib. O, Prezident İlham Əliyevin tarixin saxtalaşdırılması, İrəvanın verilməsi ilə heç vaxt barışmadığını, Qərbi Azərbaycana Qayıdış vəzifəsini bütövlükdə xalqımızın qarşısında irəli sürdüyünü deyib.

Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərov 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında bir qrup ziyalı ilə görüşünü xatırladaraq, dövlət başçısının proqram xarakterli çıxışında yeni milli hədəfimizi - tarixi torpaqlarımıza qayıdışı müəyyən etdiyini deyib. Bildirib ki, bu qayıdışın bütün detalları Prezidentin tapşırığı ilə hazırlanmış Qərbi Azərbaycana Qayıdış Konsepsiyasında öz əksini tapıb.

Xarici işlər nazirinin müavini Xələf Xələfov müzakirəyə çıxarılan mövzunun mühüm siyasi-hüquqi xarakter daşıdığını deyib. O, məsələnin Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbədən sonra yaranmış yeni reallıqlar kontekstində vacibliyindən bəhs edib. Nazir müavini soydaşlarımızın öz əzəli torpaqlarına qayıdışının bütün Azərbaycan xalqının hədəfi olduğunu, bu mənada aparılan müzakirələrin milli həmrəyliyin daha da möhkəmlənməsinə xidmət etdiyini söyləyib.

Xələf Xələfov Qayıdış Konsepsiyası ilə bağlı təşəbbüsün Prezident tərəfindən vaxtında irəli sürüldüyünü, həm daxili, həm beynəlxalq müstəvidə bunun üçün lazımi imkanların yaradıldığını bildirib. O, qayıdışla bağlı məsələlərin həllinə dair yol xəritəsinin hazırlanmasının önəmli olduğunu deyib. Qeyd edib ki, milli hədəfə nail olmaq üçün Prezidentin müəyyən etdiyi siyasi xəttə uyğun olaraq səylərimizi birləşdirməli, həmrəyliyimizi nümayiş etdirməliyik.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov ermənilər tərəfindən törədilmiş cinayətlərin beynəlxalq hüquq baxımından qiymətləndirilməsi, milli qanunvericilikdə bu məsələlərin əks olunması ilə bağlı bəzi məqamlara toxunub. Qeyd edib ki, Azərbaycan xalqına qarşı uzun müddət ərzində ən ağır beynəlxalq cinayətlər törədilib və Qərbi Azərbaycana qayıdışın ən mühüm komponentlərindən biri bu cür cinayətlərin beynəlxalq müstəvidə tanınmasına nail olmaqdır.

Dinləmədə çıxış edənlər Qərbi Azərbaycana qayıdışla bağlı məsələnin dövlətimizin əsas hədəflərindən biri olduğunu deyiblər, Qərbi Azərbaycan İcmasının bu istiqamətdə həyata keçirdiyi işləri təqdirəlayiq hesab ediblər. Müzakirələrdə bir sıra təkliflər də səsləndirilib.

***"Azərbaycan"***

# Baş nazir Əli Əsədov Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustini ad günü münasibətilə təbrik edib

Martın 3-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustinin ad günü münasibətilə ona təbrik məktubu göndərib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məktubda Mixail Mişustinin Azərbaycan və Rusiya arasında ənənəvi dostluq, mehriban qonşuluq münasibətlərinin və əməkdaşlığın inkişafına töhfəsi qeyd edilir.

Birgə səylərin bundan sonra da Azərbaycan-Rusiya ticari-iqtisadi və investisiya əməkdaşlığının daha da genişlənməsinə, müxtəlif sahələrdə qarşılıqlı sərfəli təşəbbüslərin səmərəli reallaşdırılmasına imkan yaradacağına əminlik bildirilib.

Məktubda həmçinin iki ölkə arasında konstruktiv dialoqun və sıx birgə fəaliyyətin davamına ümid ifadə edilib.

# Azərbaycanın xarici işlər naziri bir sıra görüşlər keçirib

Martın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının (QH) COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü çərçivəsində ölkəmizdə səfərdə olan Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) baş direktoru Rafael Qrossi ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüş zamanı Azərbaycan ilə agentlik arasında əməkdaşlıq, habelə nüvə təhlükəsizliyi və zəmanətləri məsələləri, bölgədə cari vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov agentliyin səlahiyyəti üzrə bir çox istiqamətlərdə uzun illərdən bəri birgə proqramlar həyata keçirildiyini, kənd təsərrüfatı, neft-kimya sənayesi, tibb və sair sahələrdə əməkdaşlıq səviyyəsindən məmnunluq ifadə edərək, digər bir sıra istiqamətlərdə də geniş perspektivlərin olduğunu vurğulayıb.

Görüş zamanı nazir həmçinin nüvə təhlükəsizliyinin təmin edilməsinə Azərbaycanın böyük əhəmiyyət verdiyini qeyd edərək, bu xüsusda Ermənistan tərəfindən köhnəlmiş texnologiyaların istifadə edildiyi "Metsamor" Atom-Elektrik Stansiyasının istismarı zamanı AEBA tərəfindən müəyyən edilmiş təhlükəsizlik standartlarına riayət edilməsinin vacibliyini vurğulayıb.

Baş direktor Qrossi Azərbaycanın AEBA üçün əhəmiyyətli tərəfdaş olduğunu diqqətə çatdıraraq, keçirilən birgə layihələri məmnunluqla vurğulayıb, habelə nüvə təhlükəsizliyi və agentliyin ixtisaslaşdığı digər sahələrdə Azərbaycan ilə əməkdaşlığın dərinləşdirilməsi perspektivlərinin mövcud olduğunu qeyd edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının (QH) COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü çərçivəsində ölkəmizdə səfərdə olan Kamboca hökumətinin müşaviri Sok Sifana ilə görüşüb.

Görüş zamanı Azərbaycan və Kamboca arasında ikitərəfli, o cümlədən çoxtərəfli səviyyədə mövcud əməkdaşlığın perspektivləri, həmçinin regionda və dünyada cari vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov iki ölkə arasında əməkdaşlığın inkişafının vacibliyini qeyd edib. Azərbaycanın sədrlik etdiyi QH-nin üzv ölkələr arasında münasibətlərin inkişafına əhəmiyyətli töhfələr verən bir platforma olduğu diqqətə çatdırılıb. Nazir Ceyhun Bayramov Azərbaycanın bundan sonra da QH çərçivəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib. Nazir həmçinin postmünaqişə dövründə regionda mövcud vəziyyət, xüsusilə də mina təhdidləri barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Kamboca hökumətinin müşaviri Sok Sifana Kambocanın Azərbaycan ilə münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu bildirib. Azərbaycanın QH-yə sədrlik dövrünün hərəkatın inkişafına töhfə verdiyi diqqətə çatdırılıb. O, Azərbaycanla Kamboca arasında kənd təsərrüfatı, təhsil, turizm sahələrində geniş əməkdaşlıq perspektivlərinin olduğunu vurğulayıb.

Azərbaycan Respublikası Milli Məclisinin ASEAN Parlamentlərarası Assambleyasına müşahidəçi üzv kimi qəbul olunması təqdir olunub. Tərəflər eyni zamanda minaların effektiv təmizlənməsi istiqamətində əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun (QH) Zirvə görüşü çərçivəsində ölkəmizdə səfərdə olan Yəmən xarici işlər naziri Əhməd Avad bin Mubarak ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında iqtisadi-ticarət, humanitar, təhsil və digər sahələrdə gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub. Nazirlər həmçinin beynəlxalq təşkilatlar, xüsusilə İslam Əməkdaşlıq Təşkilatı, habelə QH çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov qarşı tərəfə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 illik işğal dövrü barədə ətraflı məlumat verib. Ölkəmizə qarşı Ermənistanın davam edən mina təhdidi diqqətə çatdırılıb.

Yəmən xarici işlər naziri Əhməd Avad bin Mubarak ölkəmizin Qoşulmama Hərəkatı çərçivəsində fəaliyyəti, o cümlədən Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə təşəkkürünü ifadə edib. O, Yəmənin Azərbaycanla əməkdaşlığın möhkəmlənməsi və həmrəylik ruhunun dərinləşməsində maraqlı olduğunu ifadə edib.

Görüşdə həmçinin regional təhlükəsizlik məsələləri müzakirə edilib.

* * *

Martın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının (QH) COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü çərçivəsində Azərbaycanda səfərdə olan BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Köröşini qəbul edib.

Nazir Ceyhun Bayramov Qoşulmama Hərəkatının Zirvə görüşündə iştirakına görə Tsaba Köröşiyə təşəkkürünü bildirib, ölkəmizin sədrliyi çərçivəsində təşkil edilmiş Zirvə görüşünün əhəmiyyətindən bəhs edib.

Nazir Ceyhun Bayramov BMT nümayəndələrinin son illərdə ölkəmizə səfərlərindən, BMT Baş Assambleyasının Prezidentinin ofisi ilə faydalı əməkdaşlıq münasibətlərindən məmnunluğunu ifadə edərək, BMT-nin gündəliyində duran məsələlər üzrə müzakirələrdə Azərbaycanın fəal iştirakını və təşəbbüslərini diqqətə çatdırıb.

Görüşdə həmçinin bölgədəki vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri, mövcud mina təhdidləri, Ermənistanla münasibətlərin normallaşdırılması, o cümlədən sülh gündəliyi üzrə Azərbaycan tərəfindən atılan addımlar qeyd edilib.

Tsaba Köröşi öz növbəsində dəvətə görə minnətdarlığını bildirib, Qoşulmama Hərəkatının ölkəmizin sədrliyi dövründə artan rolundan bəhs edib. O, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyinin uğurla icrasını təqdir edib, Azərbaycanın COVID-19 pandemiyasına qarşı irəli sürdüyü qlobal əhəmiyyətli təşəbbüsləri yüksək qiymətləndirib.

Tərəflər həmçinin BMT gündəliyində duran qarşılıqlı maraq doğuran digər məsələləri və cari regional vəziyyəti müzakirə ediblər.

* * *

Martın 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Belarus Respublikasının Baş nazirinin müavini İqor Petrişenko ilə görüşüb.

Görüş zamanı iki ölkə arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafından məmnunluğu ifadə edilib. Bu il Azərbaycan və Belarus arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin tamam olduğu, bununla bağlı il ərzində hər iki ölkədə bu əlamətdar tarixə həsr olunmuş tədbirlərin keçirilməsinin nəzərdə tutulduğu bildirilib.

Tərəflər iki ölkə arasında təhsil, elm, mədəniyyət, idman və gənclərlə iş sahəsində əməkdaşlığın dərinləşməsinin önəmini vurğulayıblar. Tərəflər iki ölkə XİN-ləri arasında əməkdaşlığın inkişafının zəruriliyini diqqətə çatdırıblar.

Belarus Respublikasının Baş nazirinin müavini İqor Petrişenko Azərbaycanın Belarus Respublikasına beynəlxalq təşkilatlar çərçivəsində dəstəyini məmnunluqla vurğulayıb. İ.Petrişenko həmçinin ölkələrimiz arasında iqtisadiyyat və kənd təsərrüfatı sahəsində əməkdaşlığın davam etdirilməsinin zəruriliyini qeyd edib.

Görüşdə tərəflər ölkələrimiz arasında yüksək səviyyədə parlamentlərarası əlaqələrin mövcudluğunu qeyd ediblər. Eyni zamanda digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*AZƏRTAC*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Martın 3-də energetika naziri Pərviz Şahbazov Şəmkir rayon Gənclər Mərkəzində vətəndaşları qəbul edib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, qəbulda vətəndaşların elektrik enerjisi təchizatı, şəbəkəyə qoşulma, texniki şərtin verilməsi, elektrik qurğu və avadanlıqların mühafizə zonası, elektrik avadanlıqlarının istismara yararsız vəziyyəti, elektrik xətlərinin çəkilişi, elektrik enerjisinin keyfiyyəti, qaz təchizatı, qazdan istifadəyə görə yaranmış borc, sayğacların quraşdırılması, işlə təminat və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün lazımi tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydə alınıb.

Nazirliyin müvafiq struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda Şəmkir və Tovuz rayonlarından olan 36 vətəndaş iştirak edib.

# İraq Prezidenti Əbdüllətif Camal Rəşid Heydər Əliyev Mərkəzi ilə tanış olub













Azərbaycana səfəri çərçivəsində İraq Prezidenti Əbdüllətif Camal Rəşid martın 3-də Heydər Əliyev Mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, Mərkəzin direktoru Anar Ələkbərov ali qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verib.

Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərin beynəlxalq aləmdə təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edir.

İraq Prezidenti Əbdüllətif Camal Rəşid Muzeydə 1969-cu ildən 2003-cü ilədək Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xidməti istifadəsində olan avtomobillərlə tanış olub.

Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyi İraq Prezidentində böyük maraq doğurub.

Prezident Əbdüllətif Camal Rəşid "Azərbaycan inciləri" sərgisi ilə də tanış olub. Bildirilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı eksponatlar nümayiş etdirilir. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimiz orijinal şəkildə - səsli formada təqdim olunur. Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

"Mini Azərbaycan" sərgisi ilə tanışlıq zamanı isə diqqətə çatdırılıb ki, bu ekspozisiyada Bakıda və Azərbaycanın regionlarındakı tarixi memarlıq abidələri və bir sıra müasir binaların maketləri nümayiş etdirilir.

Sonra Prezident Əbdüllətif Camal Rəşid "Klassik avtomobillər sərgisi" ilə tanış olub.

Daha sonra Prezident xatirə kitabına ürək sözlərini yazıb.

Heydər Əliyev Mərkəzi ilə tanışlıq İraq Prezidenti Əbdüllətif Camal Rəşiddə xoş təəssürat yaradıb.

# İraq Prezidenti Əbdüllətif Camal Rəşidin Azərbaycana səfəri başa çatıb

İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin Azərbaycana səfəri martın 3-də başa çatıb.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İraq Prezidenti Əbdüllətif Camal Rəşidi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

# BMT Baş Assambleyası prezidentinin ölkəmizə səfəri başa çatıb



BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösinin Azərbaycana səfəri martın 3-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösini Azərbaycanın səhiyyə naziri Teymur Musayev və digər rəsmi şəxslər yola saldılar.

# Bosniya və Herseqovinanın Rəyasət Heyəti Sədrinin Azərbaycana səfəri başa çatıb



Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçin Azərbaycana səfəri martın 3-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.



# Heydər Əliyev İli 2023

# Heydər Əliyev müasir Azərbaycanın siyasi sisteminin banisidir

"Heydər Əliyev İli" çərçivəsində martın 3-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və müasir Azərbaycanın siyasi sistemi: plüralizm və bərabər imkanlar" mövzusunda konfrans keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.






Sonra Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə təbii fəlakət nəticəsində həlak olanların əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Konfransda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən, 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi Ümummilli Liderimizin zəngin həyat yolunun və müstəsna fəaliyyətinin hərtərəfli tədqiq olunaraq geniş ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir: "Müstəqil, hüquqi və demokratik dövlət olan Azərbaycanın aparıcı siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası da Heydər Əliyevin dövlətçilik irsinin və əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması məqsədilə il ərzində çoxsaylı tədbirlər keçirəcək. "Heydər Əliyev İli" ilə əlaqədar YAP Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş tədbirlər planı çərçivəsində müsabiqələr, aksiyalar, görüşlər, elmi-praktik konfranslar və digər bir sıra tədbirlər təşkil ediləcək ki, bu da Heydər Əliyev şəxsiyyətinin müasir dövlətçilik tariximizdə əvəzsiz yerinin və rolunun tədqiqinə mühüm töhfə olacaqdır".

YAP Sədrinin müavini xatırladıb ki, "Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən keçirilən tədbirlərdə Ulu Öndərin "Nə qədər ki Azərbaycan var, mən də varam" kəlamından deviz kimi istifadə olunmaqdadır: "Çünki Heydər Əliyev tərəfindən müdrikcəsinə ifadə edilmiş bu dərin məzmunlu fikir Azərbaycanın müasir və zəngin dövlətçilik tarixinin dünənini, bu gününü və gələcəyini, Ulu Öndərin milli və bəşəri məzmunlu ideyalarının əbədiyaşarlığını aydın ifadə edir. Heydər Əliyev şəxsiyyəti və onun fəaliyyəti tarixi, coğrafi, siyasi və mənəvi nöqteyi-nəzərdən ölçüyəgəlməzdir. Çünki Ümummilli Lider fəaliyyətinin bütün mərhələlərində Azərbaycanın tərəqqisinə, xalqın ali mənafeyinin, dövlət maraqlarının qorunmasına, milli-mənəvi dəyərlərin və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən misilsiz işlər görmüş, Azərbaycan naminə taleyüklü uğurlara imza atmış, Azərbaycanı zirvələrə yüksəldən tərəqqi və Zəfər yolunun möhkəm təməllərini yaratmışdır".

Tahir Budaqov qeyd edib ki, müasir müstəqil Azərbaycan dövlətinin banisi, dünənin, bu günün və gələcəyin - XXI əsrin, üçüncü minilliyin partiyası olan Yeni Azərbaycan Partiyasının qurucusu, türk dünyasının böyük oğlu, müdrik dövlət xadimi və dünya şöhrətli siyasətçi Heydər Əliyevin müstəsna xidmətlərindən və zəngin dövlətçilik irsinin çox mühüm istiqamətlərindən biri xalqın maraqlarına, tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövrün çağırışlarına cavab verən modern dövlət quruculuğudur: "Bu kontekstdə plüralizm və bərabərlik prinsiplərinə, sivil və demokratik dəyərlərə əsaslanan müasir siyasi sistemin yaradılması və ardıcıl, məqsədyönlü ictimai-siyasi, hüquqi islahatlar vasitəsilə təkmilləşdirilməsi xüsusi əhəmiyyətə malikdir. "Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və müasir Azərbaycanın siyasi sistemi: plüralizm və bərabər imkanlar" mövzusunda keçirilən bugünkü tədbirimiz də Ümummilli Liderin irsində plüralizmə və bərabər imkanlara, ədalət prinsipinə və demokratik dəyərlərə söykənən dövlət quruculuğu, o cümlədən müasir siyasi sistemin formalaşdırılması məsələlərinə nəzər salınması baxımından mühüm önəm daşıyır".

"Sirr deyil ki, SSRİ-nin dağılması ilə əlaqədar respublika səviyyəsində də baş verən hadisələr Azərbaycanın olduqca mürəkkəb vəziyyətlə qarşılaşmasına səbəb olmuşdu. 80-ci illərin sonundan başlayaraq respublikamızda hökm sürən ictimai-siyasi böhran, iqtisadi tənəzzül, vətəndaş qarşıdurması müstəqilliyin bərpasından sonra daha da şiddətlənmiş, müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən Azərbaycan faktiki olaraq iflic vəziyyətinə düşmüşdü",- deyən Tahir Budaqov bildirib ki, belə bir şəraitdə ölkənin xaos və böhrandan xilas olması, müstəqil dövlət quruculuğunun həyata keçirilməsi üçün ilk növbədə güclü siyasi liderə ehtiyac var idi. Xalq ümidini zəngin dövlətçilik təcrübəsinə malik olan, fəaliyyətinin bütün dövrlərində Vətənin ali mənafeyini və milli maraqları rəhbər tutan dahi şəxsiyyət Heydər Əliyevə bağlamışdı. 1992-ci il noyabrın 21-də xalqın iradəsi ilə alternativsiz Lider ətrafında Yeni Azərbaycan Partiyasının təsis edilməsi xalqımızın milli məqsədlər ətrafında təşkilatlanmasını, siyasi-ideoloji boşluqların aradan qaldırılmasını təmin edən, dövlətimizin siyasi taleyini, gələcək yolunu - perspektivlərini müəyyənləşdirən çox mühüm və əlamətdar hadisə, müasir dövlətçilik tariximizin həlledici dönüş nöqtəsi oldu. Bu eyni zamanda siyasi sistemin təməlinin yaradılması və müstəqil dövlət quruculuğuna doğru önəmli addım idi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanda, əslində, siyasi sistemin yaradılması demək idi. Çünki o vaxta qədər bizdə siyasi sistem mövcud deyildi. Yeni Azərbaycan Partiyasının siyasi mədəniyyəti, siyasi mübarizə qaydalarının təbliği, ümumiyyətlə, siyasətin sivil yollarla aparılması ideyaları da cəmiyyətdə böyük əks-səda yaratdı və cəmiyyət tərəfindən dərhal dəstəkləndi. Biz bu ideyalara bu gün də sadiqik. Bütün siyasi mübarizələri sivil qaydalarla aparırıq və bütün siyasi məsələlərdə daim qələbə qazanırıq".

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, Yeni Azərbaycan Partiyası fəaliyyətə başladıqdan sonra yeni siyasi dəyərlər yaratdı və siyasi mədəniyyət nümunəsini ortaya qoydu: "Dövlətçilik əxlaqını öz fəaliyyətində əsas mənəvi-siyasi norma kimi götürən Yeni Azərbaycan Partiyası göstərdi ki, siyasi fəaliyyət dövlətin və xalqın maraqlarına xidmət etmək, milli mənafeyi qorumaq prinsiplərinə əsaslanmalıdır. Qısa müddət ərzində milli maraqlara əsaslanan məqsədyönlü fəaliyyəti ilə Yeni Azərbaycan Partiyası xalqın dəstəyi, Heydər Əliyevin sarsılmaz iradəsi və uğurlu siyasəti nəticəsində dövlətin siyasi sütununa çevrildi. Heydər Əliyevin nüfuzu, xalqın ona böyük inamı, dərin etimadı və davamlı dəstəyi Yeni Azərbaycan Partiyasının ardıcıl nailiyyətlər qazanmasını təmin etdi. Yarandıqdan bir neçə ay sonra partiyanın xalqın etimadı ilə hakimiyyətə gəlməsi isə nadir tarixi-siyasi hadisələrdən biri kimi Heydər Əliyev şəxsiyyətinə ümumxalq inamının bariz təzahürü idi. 1993-cü il oktyabrın 3-də xalqın iradəsinin nəticəsi olaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyevin milli maraqlara, dövrün tələblərinə və ictimai-siyasi reallıqlara uyğun həyata keçirdiyi strateji kursun çox mühüm istiqamətlərindən biri müasir, hüquqi dövlət quruculuğunun reallaşdırılması və siyasi sistemin təkmilləşdirilməsi oldu. İctimai-siyasi sabitliyin, vahid milli ideya - azərbaycançılıq ideologiyası əsasında vətəndaş həmrəyliyinin, milli birliyin təmin edilməsi, siyasi-hüquqi islahatların reallaşdırılması, müstəqillik dövründə ilk parlament seçkilərinin keçirilməsi, müstəqillik dönəminin ilk Konstitusiyasının hazırlanaraq ümumxalq səsverməsi - referendum əsasında qəbul edilməsi, kütləvi informasiya vasitələri üzərində senzuranın aradan qaldırılması kimi addımlar siyasi plüralizmin təmin olunmasına, ictimai-siyasi və hüquqi şüurun yenilənməsinə, siyasi sistemin təkmilləşməsinə və Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsinə xidmət edən mühüm tədbirlər oldu. Bu kontekstdə mütərəqqi hüquqi bazanın yaradılmasını isə xüsusi qeyd etmək lazımdır. 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsində bərabərlik hüququ təsbit edilmiş, hamının qanun qarşısında bərabər olduğu, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verildiyi əksini tapmışdır. Eyni zamanda Heydər Əliyevin demokratik, hüquqi dövlət və müasir cəmiyyət quruculuğunun, insan hüquqları və azadlıqlarının qorunması siyasətinin tərkib hissəsi olan gender siyasəti də plüralizm və bərabərliyin təmin olunmasına, ictimai-siyasi münasibətlərin və siyasi sistemin inkişafına əhəmiyyətli töhfə olmuş, qadınların müxtəlif sahələrdə fəallığının və rolunun artırılması idarəetmənin təkmilləşdirilməsi baxımından böyük önəm kəsb etmişdir".

YAP Sədrinin müavini deyib ki, Heydər Əliyev irsini müasir çağırışlara uyğun zənginləşdirən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin varislik prinsipinə əsaslanan siyasi kursunda dövlətçiliyin gücləndirilməsi mühüm prioritetlərdəndir: "Prezident İlham Əliyevin milli maraqlara, modern çağırışlara və qlobal tendensiyalara adekvat islahatlar proqramı bərabər imkanlara və plüralizmə əsaslanan siyasi sistemin təkmilləşməsinə, dialoq prosesinin dərinləşdirilməsinə, çoxpartiyalı siyasi sistemin inkişafına xidmət edir. Bu gün siyasi partiyalar müstəqillik tariximizdə heç vaxt olmadığı kimi birlik və həmrəylik nümayiş etdirir, milli məsələlərdə vahid yanaşma və prinsipial mövqe ortaya qoyurlar. 44 günlük Vətən müharibəsi zamanı əksər siyasi partiyaların birgə bəyanat imzalayaraq ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin siyasətinə birmənalı dəstək göstərmələri və postmünaqişə mərhələsində ümummilli məsələlərdə ortaq mövqedən çıxış etmələri bu reallığın bariz nümunəsidir".

"Azərbaycanın və Cənubi Qafqaz regionunun ən böyük siyasi partiyası olan Yeni Azərbaycan Partiyası hər zaman demokratik siyasi mühitin və plüralizmin tərəfdarı olub, bu gün də siyasi sistemin inkişafında, dialoqun dərinləşdirilməsində, rəqabət mühitinin güclənməsində maraqlıdır və bu istiqamətdə ardıcıl fəaliyyət göstərir, mühüm təşəbbüslər irəli sürür. Partiyanın proqramında qeyd edilmişdir ki, "plüralizm, hakimiyyətlərin bölünməsi, insanların azadlığı və bərabərliyi, ictimai rəyin nəzərə alınması, qanunların aliliyinə riayət olunması YAP-ın fəaliyyətinin siyasi əsaslarıdır". Bununla yanaşı, proqramda gender bərabərliyinin təmin edilməsinin YAP-ın diqqət mərkəzində dayanan əsas məsələlərdən biri olduğu da vurğulanmışdır. Yeni hədəflərdən və milli vəzifələrdən irəli gələrək Yeni Azərbaycan Partiyası öz fəaliyyətində qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərini əsas götürür, siyasi plüralizmi təşviq edir, siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə layiqli töhfələr verir" , - deyə Tahir Budaqov söyləyib.

YAP Mərkəzi Aparatının rəhbəri bildirib ki, tarixi ədalətin və ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsindən sonra yeni reallıqlar və çağırışlar fonunda Azərbaycanın qarşısında ictimai-siyasi sabitliyin və milli həmrəyliyin qorunması, dayanıqlı inkişafın təmin olunması, tarixi Qələbənin diplomatik müstəvidə möhkəmləndirilməsi, Böyük qayıdışın vaxtında və yüksək səviyyədə həyata keçirilməsi və digər mühüm vəzifələr durur: "Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində dövlətçiliyin əsaslarının gücləndirilməsi, o cümlədən plüralizm və bərabərlik prinsiplərinə əsaslanan siyasi sistemin inkişafı bəhs olunan strateji hədəflərin reallaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Şübhə yoxdur ki, Yeni Azərbaycan Partiyası da rəqabətə, plüralizmə, bərabər imkanlara əsaslanan demokratik mühitin üstünlüklərindən maksimum istifadə etməklə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək milli hədəflərin reallaşmasına öz töhfəsini verəcək.

Fürsətdən istifadə edərək Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyeva başda olmaqla partiyamızın bütün qadın üzvlərini, ümumilikdə bütün Azərbaycan xanımlarını qarşıdan gələn Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hər birinə möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti diləyir, siyasi həmfikirlərimizə Azərbaycanın gələcəyi naminə fədakar fəaliyyətində daha da böyük uğur və qələbələr arzulayıram".

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, bu gün çox geniş bir coğrafiyada milyonlarla insanın ehtiramla xatırladığı Heydər Əliyevin Azərbaycan xalqının yetirdiyi ən böyük dühalardan biri kimi insanlığın yaddaşında hər zaman özünəməxsus yeri olacaq. Heydər Əliyev xalqımızın əsrlər boyu formalaşan milli dəyərləri, ictimai-siyasi şüuru və dövlətçilik təfəkkürü üzərində optimal dövlət modeli qurmaqla, siyasi varislik ənənələrini yaradan bir lider kimi fəlakət anında onu tarixin sınağından məharətlə çıxarmağı da bacaran bir xilaskardır: "Bu baxımdan Heydər Əliyevin siyasi iradəsi və əzmi müstəqilliyimizin qorunub saxlanmasında müstəsna amil olmuşdusa, xalq - iqtidar - ordu birliyinin gücünə istinad edən ölkə Prezidenti İlham Əliyevin Ali Baş Komandan kimi bənzərsiz sərkərdəlik məharəti Ulu Öndərin vəsiyyətinə əməl olunmasında, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsində həlledici faktora çevrildi. Şanlı Zəfər salnaməsi siyasi varisliyin uğurunu səciyyələndirən ən bariz nümunə, ən ibrətamiz örnəkdir. Həydər Əliyevin şah əsəri olan "Yeni, müstəqil Azərbaycan" daim irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə bərabər inkişafı təmin edən, hər addımında insan və şəxsiyyət amilini uca tutan ölkə kimi tanınmaqdadır. Ulu Öndərin tarixi estafetlə ötürdüyü siyasi və ideoloji xətt müasir çağırışlar fonunda Prezident İlham Əliyevin mükəmməl baxışları ilə tam uzlaşır".

Dövlət Komitəsinin sədri vurğulayıb ki, yüksək inkişaf yalnız iqtisadi artımı nəzərdə tutmur, cəmiyyətin bütün təbəqələrinin sosial rifahı mühüm amil olmaqla, əhali qruplarının səmərəli məşğulluğunu, layiqli əməyə nail olmağı hədəfləyir: "Xüsusilə qadınların iqtisadi imkanlara bərabər çıxışını təmin etmək onları bərabər inkişaf hədəfinə daha çox yaxınlaşdırır. Həmçinin bütün bu taleyüklü vəzifələrin icrası prosesinə Azərbaycan cəmiyyətinin bütün təbəqələrindən olan insanların səfərbər edilməsi üçün Prezident İlham Əliyevin ənənə və müasirliyin vəhdətinə əsaslanan siyasi varisliyə üstünlük verərək ölkədə vətəndaş birliyini və siyasi həmrəyliyi əldə etməyin bir çox ölkələrdə arzulanan, amma reallaşdırılması mümkünsüz olan optimal həllinə nail olduğunu xüsusi vurğulamaq lazımdır".

"44 günlük Vətən müharibəsindən sonra yeni reallıqlar yaranıb. Bu vəziyyətlərin üstünlükləri olduğu kimi, yeni çağırışlara da yol açdığı sirr deyil. Odur ki, həlli vacib iqtisadi, sosial inkişafı təmin edəcək hər iki səviyyədə dayanıqlı nəticəyönümlü işləri həyata keçirmək və yeni çağırışlara adekvat reaksiyanı təmin etmək üçün cəmiyyətin bütün təbəqələrinin Prezidentin və dövlətimizin ətrafında sıx birliyini daha da möhkəmləndirmək lazımdır. Hazırda bu vacib vəzifənin öhdəsindən, mübaliğəsiz söyləmək olar ki, Ulu Öndərin siyasi mirası olan YAP uğurla gəlməkdədir. Son qurultaydan sonra YAP yenilənmiş formatda proqramlar, ən müxtəlif istiqamətli layihələr həyata keçirməklə ictimai və siyasi təşkilatlarla konstruktiv dialoqa və əməkdaşlığa üstünlük verən müasir yanaşmalar sərgiləyir. Həmçinin bütün səviyyələrdə üzvlərinin, eləcə də kişi və qadınların bərabər iştirakı və təmsilçiliyinə üstünlük verməklə gender bərabərliyinin təminatına yönəlmiş ciddi və nəzərəçarpan mövqe ortaya qoyur. Müasir Azərbaycan cəmiyyətində aparıcı rola malik YAP bu sistemin digər komponentləri ilə siyasi plüralizm və bərabər imkanlar şəraitində formalaşan münasibətlərə üstünlük verərək demokratik ab-havanın, dialoq mühitinin bərqərar olmasına yönəlik siyasi islahatlar prosesinə ahəngdarlıq gətirir. Ölkədə "Siyasi Partiyalar haqqında" yeni qanunun qəbul edilməsi isə daha təkmil, daha mükəmməl siyasi sistemin formalaşmasına təkan verməkdədir",- deyə Dövlət Komitəsinin sədri vurğulayıb.

YAP Veteranlar Şurasının üzvü Əli Həsənov bildirib ki, dövlət idarəçiliyi barədə çox elmi əsərlər, tövsiyələr var. Ancaq idarəçilik elə bir sahədir ki, müəssisə və təşkilatları, rayon və şəhərləri, dövlətləri yalnız elmi biliklə idarə etmək mümkün deyil. Xüsusən dövlətləri idarə edən şəxslər elmi biliklə bərabər, böyük təcrübəyə, bacarığa, dünyagörüşünə malik olmalı, idarə edəcəyi dövlətin problemləri, ümumiyyətlə, dövlətin bütün sahələri ilə bağlı məlumatlı olmalı, insanlarla ünsiyyət qurmaq bacarığı, Vətəninə, xalqına, torpağına, xalqının adət və ənənələrinə və milli-mənəvi dəyərlərinə bağlılığı olmalı, tolerant və çox cəsarətli olmalıdır.

YAP Veteranlar Şurasının üzvü qeyd edib ki, 90-cı illərin əvvəlində respublikada iqtisadi, siyasi, sosial xaos, ölkənin xəritədən silinmə təhlükəsi olan dövrdə xalqı yalnız Heydər Əliyev kimi şəxsiyyət xilas edə bilərdi: "Təcrübə, bilik, bacarıq, cəsarət, xalqın ona olan inamı, ölkədəki iqtisadi, siyasi, sosial durumdan xəbərdar olması və xalqının psixologiyasına bələdçiliyi ona imkan verdi ki, ölkəni xilas etsin. Xalqın tələbi ilə hakimiyyətə yenidən qayıtdıqdan sonra ictimai-siyasi sabitliyi bərpa etdi, milli inkişaf strategiyasını müəyyənləşdirdi, bazar iqtisadiyyatına keçidə başladı, idarəetmənin qanunvericilik bazasını yaratdı, inzibati strukturu yenidən qurdu, vətəndaş həmrəyliyinə nail oldu, əsaslı iqtisadi islahatlara başladı, çoxpartiyalı siyasi sistemə keçidi təmin etdi. Zaman keçdikcə Heydər Əliyevin idarəçilik təcrübəsi daha da aktuallaşır. Xüsusən bugünkü dünyanın Heydər Əliyevin idarəçilik təcrübəsinə daha çox ehtiyacı var. Onun müstəqillik illərindəki idarəçilik təcrübəsi bugünkü dünya ölkələrinin rəhbərləri üçün nümunədir".

Əli Həsənov deyib ki, bu gün Prezident İlham Əliyev Ulu Öndərin siyasi və idarəçilik irsini ölkənin, xalqın mənafeyi naminə uğurla davam etdirir. 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi isə Heydər Əliyev siyasətinin və Prezident İlham Əliyevin iradəsinin, onun xalqla birliyinin təntənəsidir.

Konfransda YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "Müasir Azərbaycanın siyasi sisteminin əsas prinsipləri" mövzusunda çıxış edərək bildirib ki, cəmiyyətin və dövlətin inkişafı siyasi sistemlə, onun xarakteri, prinsipləri və funksiyaları ilə sıx bağlıdır. Onun sözlərinə görə, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə demokratik siyasi sistemin bərqərar olması üçün tarixi-siyasi şərait yarandı: "1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycanda demokratik siyasi sistemin formalaşması və inkişafı istiqamətində məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsinə başlandı. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında ölkəmizin siyasi sisteminin əsas prinsipləri öz əksini tapdı. Bu sahədə atılan addımlar idarəetmə institutlarının inkişafı üçün əlverişli şərait yaratdı və idarəetmə münasibətlərində şəffaflığı təmin etdi. İnsan hüquq və azadlıqlarının təmin olunmasına dair ölkə qanunvericiliyi təkmilləşdirildi".

Mübariz Qurbanlı qeyd edib ki, demokratik siyasi sistemin bərqərar olması nəticəsində ölkəmizdə siyasi mədəniyyət inkişaf etdi: "Siyasi sistemin vətəndaşlara geniş hüquq və azadlıqlar verməsi siyasi mədəniyyətin mütərəqqi xarakter daşımasında mühüm rol oynadı. Ölkəmizin demokratik siyasi sistemi insan hüquq və azadlıqlarının təmin olunması ilə bağlı səmərəli hüquqi mexanizmləri özündə ehtiva etdi. Ölkə vətəndaşları çoxpartiyalı sistemə əsaslanan seçkilər yolu və vətəndaş iştirakçılığını təmin edən digər hüquqi vasitələrlə qərarların qəbul olunması prosesində fəal iştirak etməyə başladılar. Siyasi sistemin özündə ehtiva etdiyi demokratik dəyərlər azərbaycançılıq məfkurəsinin və vətəndaş həmrəyliyinin möhkəmlənməsində, dünya azərbaycanlılarının vahid amal uğrunda birləşməsində mühüm rol oynadı. Heydər Əliyevin apardığı siyasət etnik mənsubiyyəti və dini baxışlarından asılı olmayaraq, ölkə vətəndaşları tərəfindən dəstəkləndi və onlar müstəqil dövlət quruculuğu prosesində yaxından iştirak etdilər.

Konfransda tarix elmləri doktoru, professor İradə Hüseynova, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva da çıxış ediblər.

Sonda xatirə fotosu çəkdirilib.

# Monteneqronun nümayəndə heyəti Milli Məclisdə olub



Martın 3-də Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev ölkəmizdə səfərdə olan Monteneqronun əmək və sosial rifah naziri Admir Adroviçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Milli Məclis Sədrinin müavini iki ölkə arasında yüksəksəviyyəli siyasi dialoq və dostluq münasibətləri əsasında əlaqələrin daim genişlənməkdə olduğunu vurğulayıb.

Görüşdə vitse-spiker qonaqlara Azərbaycan parlamenti, ölkədə bütün sahələrdə, xüsusilə sosial sahədə aparılan ardıcıl islahatlar, əhalinin sosial təminatının yaxşılaşdırılması, şəhid ailələrinin və qazilərin sosial müdafiəsi istiqamətində görülən davamlı tədbirlər barədə məlumat verib.

Adil Əliyev diqqətə çatdırıb ki, 2023-cü ilin dövlət büdcəsi Azərbaycan tarixinin ən böyük büdcəsidir və büdcədə əhalinin rifahının yaxşılaşdırılması və işğaldan azad edilmiş ərazilərimizin bərpası prioritet olaraq müəyyənləşdirilib.

Görüş zamanı Milli Məclis Sədrinin müavini qeyd edib ki, Azərbaycan Cənubi Qafqazda sülh gündəliyinin irəli aparılması ilə bağlı üzərinə düşən bütün addımları atsa da, Ermənistan sülh və sabitliyin təmin olunmasına mane olur. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasının vacibliyini qeyd edən Adil Əliyev bildirib ki, beynəlxalq ictimaiyyətin Ermənistana təsir etməsi və sülh sazişinin imzalanması ilə ədalət öz yerini tutacaq.

Azərbaycan-Monteneqro arasında diplomatik əlaqələrin qurulmasının 15 ilinin tamam olduğunu qeyd edən Milli Məclis Sədrinin müavini iki ölkə arasında münasibətlərin bundan sonra da həm ikitərəfli formatda, həm də beynəlxalq müstəvidə uğurla davam edəcəyinə əminliyini ifadə edib.

Monteneqronun əmək və sosial rifah naziri Admir Adroviç Monteneqro və Azərbaycan arasında əməkdaşlıq münasibətlərinin inkişafından məmnunluğunu ifadə edib. O, ölkələrimiz arasında parlament əlaqələrinin də yüksək səviyyədə olduğunu bildirib. Qeyd edib ki, iki ölkə rəsmilərinin qarşılıqlı səfərləri əlaqələrin daha da dərinləşməsinə əlverişli zəmin yaradır.

Monteneqrolu nazir bildirib ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, sosial sahədə də görülən işlər, aparılan islahatlar dost ölkə kimi onları çox sevindirir. O, Azərbaycanın sosial sahədə apardığı davamlı islahatlardan danışıb. Qonaq Azərbaycanda əhalinin sosial təminatının yaxşılaşdırılmasının, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin onu çox məmnun etdiyini diqqətə çatdırıb.

Nazir ölkələrimiz arasında energetika sahəsində də əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin vacibliyini qeyd edib. Söhbət zamanı həmçinin Azərbaycanla Monteneqro arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, fəal təcrübə mübadiləsinin həyata keçirilməsinin əhəmiyyəti qeyd edilib.

Görüşdə Milli Məclisin deputatı Soltan Məmmədov, Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, Monteneqronun ölkəmizdəki səfiri Perisa Kastratoviç və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# İnsan hüquqları komitəsinin iclasında

Martın 3-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib.



İclası açan komitənin sədri Zahid Oruc məlumat verib ki, gündəliyə bir məsələ - Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2022-ci il üzrə məruzəsinin müzakirəsi daxil edilib.

Məsələ ilə bağlı çıxışında komitə sədri Ombudsman təsisatının Azərbaycanın ictimai-siyasi və hüquqi həyatında öz yerini tutmasından söz açıb, bu quruma cəmiyyətdə inamın artdığını qeyd edib. Komitə sədri bir sıra hüquqların təmini sahəsində ombudsman tərəfindən həyata keçirilən fəaliyyətlə bağlı fikirlərini bölüşüb. O, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə - müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına və penitensiar xidmətin müəssisələrinə, o cümlədən internat tipli təhsil müəssisələrinə Ombudsman təsisatı tərəfindən başçəkmələrin həyata keçirilməsini bu sahədə insan hüquq və azadlıqlarının təmininin araşdırılması, problemlərin üzə çıxarılması baxımından yüksək qiymətləndirib.

Komitə sədri məruzədə yer alan insan hüquqları sahəsində milli fəaliyyət proqramının hazırlanıb qəbul edilməsi, məhkəmə qərarlarının icrası mexanizmlərinin təkmilləşdirilməsi və digər məsələlərlə bağlı təkliflərin əhəmiyyətli olduğunu söyləyib. O, ombudsmanın məruzəsində sosial təminat və pensiya, qadın və uşaq, şəhid ailələri və müharibə veteranlarının hüquqlarının təminatı kimi məsələlərin diqqətdə saxlanıldığını qeyd edib. Həmçinin qurumun postmüharibə dövründə Ermənistan tərəfindən insan hüquqlarının, həmçinin beynəlxalq humanitar hüququn pozulması faktlarının müəyyən edilməsi ilə bağlı həyata keçirilmiş tədbirlərini təqdirəlayiq hesab edib.

İclasda İnsan hüquqları komitəsi sədrinin müavini Tahir Kərimli, komitə üzvləri Jalə Əhmədova, Fazil Mustafa, Razi Nurullayev, Elşad Mirbəşir oğlu, Hikmət Məmmədov, Elman Nəsirov və QHT nümayəndələri hesabatla bağlı çıxış ediblər, insan hüquq və azadlıqlarının müdafiəsi məsələləri ilə əlaqədar fikirlərini bildiriblər. Millət vəkilləri sahibkarların, əhalinin həssas qruplarının, məhbusların hüquqlarının müdafiəsi, həmçinin Ermənistandan deportasiya olunan və qaçqın düşən azərbaycanlıların hüquqlarının bərpası istiqamətlərinin diqqətdə saxlanılmasının vacibliyini vurğulayıblar. Deputatlar məruzədə irəli sürülən təkliflər, Ombudsman təsisatının gələcək fəaliyyət istiqamətləri, insan hüquq və azadlıqlarının təminatının aktual məsələləri ilə bağlı rəylərini bildirərək suallarını səsləndiriblər.

İclasda ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı Ombudsman təsisatının 2022-ci ildə insan hüquq və azadlıqlarının təmini istiqamətində fəaliyyəti, görülən tədbirlər barədə məlumat verib, deputatların suallarını cavablandırıb.

Müzakirələrin sonunda məruzə səsə qoyularaq Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

*"Azərbaycan"*

# Milli Məclisdə Fransa Senatının üzvü ilə görüş

Martın 3-də Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov ölkəmizdə səfərdə olan Fransa Senatının üzvü Natali Qule ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Soltan Məmmədov qonaqları salamlayaraq Azərbaycan və Fransa əlaqələri, Fransa Senatının və Milli Assambleyasının Azərbaycana qarşı qəbul etdiyi qərəzli qətnamələr, Ermənistanla Azərbaycan arasında sülh danışıqlarına maneə törədən amillər barədə danışıb.

Söhbət zamanı Azərbaycanın 2020-ci ildə öz torpaqlarını Ermənistanın işğalından azad etməsindən sonra regionda yaranmış yeni reallıq, 2020-ci ilin noyabrında Azərbaycan, Rusiya və Ermənistan rəhbərliyi tərəfindən imzalanmış üçtərəfli Bəyanatın icrası, Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının gedişi, azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda keçirdiyi aksiya, Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərlə keçirilmiş görüşün əhəmiyyəti və digər məsələlər barədə müzakirələr aparılıb.

Görüşdə Milli Məclisin Fransa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Cavanşir Feyziyev, Tural Gəncəliyev, Nigar Arpadarai, Fransanın ölkəmizdəki səfiri Ann Buayon və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Minaatan bölmələri ilə döyüş hazırlığı məşğələləri keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü ilin döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Ordusunun minaatan bölmələri ilə döyüş hazırlığı məşğələləri keçirilib.



AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, təlim atış çalışmaları üzrə tapşırıqları yerinə yetirən bölmələr təyin olunmuş hədəfləri minaatanlardan yüksək dəqiqliklə məhv ediblər.

Qabaqcıl döyüş təcrübəsi nəzərə alınmaqla keçirilən məşğələlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

# Xarici media nümayəndələri Ağdamda ermənilərin törətdiyi vəhşiliklər barədə məlumatlandırılıb





Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşünü işıqlandırmaq üçün ölkəmizə gəlmiş media nümayəndələri Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər ediblər.




AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səfərin məqsədi xarici KİV nümayəndələrini Ermənistan silahlı qüvvələrinin işğal zamanı Ağdam şəhərində törətdiyi vəhşiliklərlə, cinayət izlərilə, həmçinin Ağdam işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən aparılan tikinti-quruculuq işləri ilə tanış etmək olub.

Jurnalistlər əvvəlcə Ağdam rayonunun Sarıcalı kəndinə gəliblər. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı tərəfindən media nümayəndələrinə Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə məlumat verilib.

Səfər çərçivəsində Ağdamda Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni və tarixi abidələrə baxış keçirilib. Qonaqlara Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni faşizmi barədə ətraflı məlumat verilib. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra şəhərdə və rayonun kəndlərində evləri, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksinə gələn media nümayəndələri bu tarixi məkan barədə məlumatlandırılıblar. Bildirilib ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq tikililərindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın imarətidir. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Tövlə kimi istifadə edilən xan sarayında inək və donuz saxlanılıb.

Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq da erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsini də dağıdıblar.

Diqqətə çatdırılıb ki, işğaldan azad olunmuş Ağdam şəhərində həyata keçiriləcək bərpa-quruculuq işləri çərçivəsində Xurşidbanu Natəvanın abidəsi bərpa edilib. Pənahəli xanın sarayı və İmarət kompleksində də bərpa işləri həyata keçiriləcək.

Xarici media nümayəndələri sonra Ağdam şəhər Cümə məscidinə gəliblər. Onlara ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələrimizi məhv etmələri barədə məlumat verilib. Bildirilib ki, ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib. Erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Ağdam şəhər Cümə məscididir. Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Ölkə əhəmiyyətli abidələr siyahısında olan bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Məscidin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Erməni vandalları Ağdam Cümə məscidində də mal-heyvan saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı öz nifrətlərini nümayiş etdiriblər.

Qeyd edilib ki, Ağdam şəhəri işğaldan azad olunduqdan sonra Heydər Əliyev Fondu tərəfindən Cümə məscidində bərpa-restavrasiya işlərinə başlanılıb.

Xarici jurnalistlər Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerləyeksan etdikləri binaların qalıqlarına baxıblar. Ağdam Dram Teatrının qalıqları da bu küçədədir. Onlara ermənilərin mədəni irsimizə, o cümlədən Ağdam Dövlət Dram Teatrına vurduğu zərər barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, teatr binasının qalıqları gələcəkdə açıq səma altında muzeydə saxlanılacaq.

Jurnalistlər sonra Ağdam şəhərindəki Şəhidlər xiyabanında erməni barbarlığının şahidi olublar. Məlumat verilib ki, burada Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib. Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun qəbri də buradadır. Ağdamda hər şeyi məhv edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də qazaraq dağıdıblar.

Sonda Konfrans Mərkəzi ilə tanış olan media nümayəndələri həmçinin Ağdamda həyata keçirilən quruculuq işləri barədə də məlumatlandırılıblar. Bildirilib ki, Azərbaycan qısa müddətdə, özü də heç bir xarici maliyyə dəstəyi olmadan ermənilərin viran qoyduğu torpaqlarda cənnət yaradır.

# *Böyük qayıdış:* 44 nəfərdən ibarət 10 ailə Ağalıya çatıb





*Əvvəli 1-ci səh.*

Otuz ildən sonra Vətənə dönən zəngilanlıları Ağalı kəndində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıblar.

Böyük qayıdışın 3-cü mərhələsi çərçivəsində Ağalıya 20 ailə, 94 nəfər köçürülüb. Onlardan 50 nəfərdən ibarət 10 ailə fevralın 28-də, 44 nəfərdən ibarət 10 ailə isə bu gün Ağalıya gəlib. Doğma yurdlarına qayıdan zəngilanlılara Ağalı kəndində yaradılan şərait barədə məlumat verilib.

Qeyd edək ki, ümumilikdə, bu günə kimi Böyük qayıdış çərçivəsində Zəngilanın Ağalı kəndinə 86 ailə, 420 nəfər köçürülüb. Ağalıda məskunlaşan sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunublar. Köçürülən keçmiş məcburi köçkünlərin böyük qismi daha ağır şəraitdə yaşayanlardır.

Müvafiq qurumlar tərəfindən sakinlər peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediləcəklər. Onlar müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və sair çalışacaqlar. Köçürülmüş əhali üçün bütün infrastruktur şəraiti - dövlət xidmətləri, mərkəzi məktəb, bağça, bank, poçt, ictimai iaşə obyektləri mövcuddur.

Köç prosesinin növbəti aylarda da davam edəcəyi planlaşdırılır.

# 120 ölkənin siyasi koordinatoru yenə də Azərbaycandır

## İlham Əliyevin sədrliyi ilə Qoşulmama Hərəkatı yeni dünya düzəninin formalaşmasında qətiyyətli rol alacaq

Martın 2-də Bakıda keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü təşkilatın bundan sonrakı fəaliyyətinin əsas konturlarını müəyyənləşdirdi. Qoşulmama Hərəkatının Sədri, Prezident İlham Əliyevin qlobal həmrəylik və ədalət çağırışı toplantıda iştirak edən üzv dövlətlərin rəhbərləri, nümayəndələri tərəfindən dəstəkləndi.




Azərbaycan Prezidentinin çıxışında dünyada baş verən proseslərin, mövcud reallıqların aydın mənzərəsi öz əksini tapdı. İlham Əliyev yeni dünya düzəninin formalaşması fikrini ifadə etməklə əsas diqqəti sülhün və təhlükəsizliyin təmin edilməsinin vacibliyinə, beynəlxalq hüququn işləməməsinə yönəltdi. Ölkələri Qoşulmama Hərəkatını yeni dünya düzəninin formalaşmasında fəal iştiraka çağıran Azərbaycan Prezidenti həm də BMT sistemində təcili islahatların zəruriliyini vurğuladı, eyni zamanda Hərəkatın üzv dövlətlərindən birinin BMT Təhlükəsizlik Şurasında təmsil olunmasının vacibliyini bildirdi: "İndi dünya "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir ki, onun fəsadları dünyanın qalan hissəsində də hiss olunur. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir".

### Azərbaycanın uğurlu sədrliyi sayəsində Qoşulmama Hərəkatı böyük qüvvəyə çevrilib

Zirvə görüşünün plenar sessiyalarında Azərbaycan Prezidentinin çağırışları və irəli sürdüyü təkliflər dəyərləndirilərək bildirildi ki, qarşıda dayanan problemlərin həlli istiqamətində səylərin birləşdirilməsi prioritetdir.

Serbiya Baş nazirinin birinci müavini - xarici işlər naziri İvitsa Daçiç ölkəsinin Azərbaycanın təşəbbüslərini dəstəklədiyini qeyd edərək vurğuladı ki, Azərbaycanın Afrikada inkişaf etməkdə olan ada dövlətlərinə görə atdığı addımlar təqdirəlayiqdir.

Belarus Baş nazirinin müavini İqor Petrişenko Qoşulmama Hərəkatında uğurlu sədrliyə görə Azərbaycana və Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi ki, Azərbaycanın uğurlu sədrliyi sayəsində Qoşulmama Hərəkatı böyük qüvvəyə çevrilib. Çıxışlarda bildirildi ki, bu gün dünyada əsas böhranlardan biri olan iqtisadi tənəzzül birgə fəaliyyətin zəruriliyini nümayiş etdirir. Bu səbəbdən Qoşulmama Hərəkatı daxilində əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı faydalı əlaqələrin qurulması da mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda pandemiya böyük insan itkisi ilə nəticələnib. Pandemiya müddətində Ümumdünya Səhiyyə Təşkilatı və Qoşulmama Təşkilatı uzunmüddətli əməkdaşlığın əsasını qoyub.

Prezident İlham Əliyevin Zirvə görüşündəki fikirlərini təqdir edən sessiya iştirakçıları bir daha Hərəkata sədrliyi dövründə Afrika ölkələrinə dəstək üçün 1 milyon dollar pul ayırdığı, eləcə də COVID-19-la bağlı mübarizədə göstərdiyi səylərə, sadiqlik və beynəlxalq həmrəyliyə görə Azərbaycana minnətdarlıq etdilər.

İlham Əliyevin təşəbbüsü ilə reallaşan Bakı Zirvə görüşünü Qoşulmama Hərəkatının həmrəyliyinin simvolu adlandıran dövlət və hökumət başçıları bildirdilər ki, Azərbaycan beynəlxalq iqtisadi böhranların nəticələrini azaltmaq üçün ölkələrin çoxtərəfli əməkdaşlığına töhfə verməyə sadiqdir.

### Azərbaycanın sədrliyi müddətində Hərəkat bir çox yeniliklərə imza atıb

Bu bir həqiqətdir ki, məhz İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sədrliyi dövründə Qoşulmama Hərəkatının gələcəyi naminə bir çox təşəbbüslər irəli sürülüb və Azərbaycan beynəlxalq gündəmdəki bir sıra aktual məsələlərin həllində liderlik nümayiş etdirib. Azərbaycanın sədrliyi müddətində hərəkat bir çox yeniliklərə addım atıb və bu dönəm təsisatın tarixində ən effektiv və ən məsuliyyətli bir zaman kəsiyi kimi qəbul edilir.

Prezident isə Zirvə görüşündəki çıxışında bir daha bəyan etdi ki, Azərbaycanın təşkilatda sədrlik müddəti bu il başa çatsa da, ölkəmizin Qoşulmama Hərəkatına yardımı və onunla əməkdaşlığı fəal şəkildə davam edəcək. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi üzv dövlətlərin legitim maraqlarının müdafiəsi və Hərəkatın beynəlxalq arenada mövqeyinin güclənməsi üzrə səylərini əsirgəməyəcək. Məqsəd institusional davamlılıq yaratmaq və Azərbaycandan sonra sədrliyi təhvil alacaq üzvlərə uğurlu miras qoymaqdır.

Bu Zirvə görüşü Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın bəşəriyyəti narahat edən çağırışlara münasibətdə beynəlxalq hüququn qlobal məsuliyyətini yüksək səviyyədə nümayiş etdirən bir dövlət kimi davranmasının növbəti təzahürüdür.

Bu ilin sonunda Azərbaycan sədrliyi Uqandaya təhvil verəcək. Ancaq etiraf edilməlidir ki, 2019-cu ildən bəri Azərbaycan təsisatın sədri kimi üzərinə düşən öhdəliyi layiqincə yerinə yetirib və bütün proseslər uğurla nəticələnib. Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri hər zaman təqdir edilib və həyata keçirilən layihələr Qoşulmama Hərəkatının tarixində yeni səhifələr açıb. Bütün bunlar Azərbaycanın tarixi missiyasının öhdəsindən layiqincə gəldiyini və Qoşulmama Hərəkatının gələcək fəaliyyəti üçün nümunə yaratdığını söyləməyə əsas verir.

Bir sözlə, Azərbaycanın BMT-dən sonra dünyanın ikinci ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatına uğurlu Sədrliyi İlham Əliyevin yüksək təşkilatçılıq, liderlik bacarığının əyani təzahürü olmaqla yanaşı, təşkilatın qlobal nüfuzunun yüksəlməsini də şərtləndirib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Qoşulmama Hərəkatının gələcək fəaliyyətinə layiqli töhfə

## Bakıda keçirilən Zirvə görüşü Azərbaycanın təşkilata uğurla sədrlik etdiyini bir daha təsdiqlədi

Bakı növbəti dəfə beynəlxalq tədbirə uğurla evsahibliyi etdi. Martın 2-də paytaxtda keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə 70-ə yaxın ölkənin dövlət və hökumət başçıları, müxtəlif ölkələrin yüksəksəviyyəli nümayəndələri, həmçinin beynəlxalq təşkilatların rəhbərləri, nazirlər, nazir müavinləri, səfirlər dəvət olunmuşdular.

Görüşdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Hərəkatın institusional inkişafına güclü dəstək verir: "Biz Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması təşəbbüsü ilə çıxış etdik. Şəbəkənin ilk iclası 2022-ci ilin iyun ayında Bakıda keçirilib. Bundan başqa, 2022-ci ilin iyulunda Şuşa Razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradılıb. Təşkilatın daimi katibliyi Bakıda yerləşəcək. Məqsədimiz institusional davamlılıq yaratmaq və Azərbaycandan sonra sədrliyi təhvil alacaq üzvlərə uğurlu miras qoymaqdır".

Dövlətimizin başçısının da qeyd etdiyi kimi, Qoşulmama Hərəkatının inkişafına ölkəmizin sədrliyinin böyük təsiri olub. Hərəkata üzv dövlətlər də etiraf edirlər ki, Azərbaycanın sədrliyi dövründə QH-nin nüfuzu artıb, beynəlxalq miqyasda daha da tanınıb. Sədrlik dönəmi çətin vaxta düşsə də, Prezident İlham Əliyevin təşəbbüsləri və səyləri nəticəsində Hərəkat uğurlu fəaliyyət göstərib.

### Ölkəmizin geosiyasi mövqeyi daha da güclənir

Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının daha aktiv şəkildə regional və qlobal proseslərə təsiri müşahidə olundu. 120 dövləti birləşdirən Hərəkat ölkələrin bir yerdə cəmləşdiyi ən böyük qrupdur. Bu, BMT-dən sonra qlobal olaraq ikinci ən böyük təşkilat hesab olunur. BMT üzvlərinin 2/3-nin birləşdiyi hərəkat dünya əhalisinin 55 faizini əhatə edir. "Hərəkata üzv olan dövlətlərdə il ərzində 15 trilyon dollara yaxın ÜDM formalaşdırılır. Bu isə qlobal iqtisadiyyatın 15 faizindən çoxu deməkdir. Ötən il üzv dövlətlərin 4,5 trilyon dollardan çox ixracatı olub", - deyə deputat bildirib.

Vüqar Bayramov vurğulayıb ki, Azərbaycanın Hərəkatın fəaliyyətində fəal iştirakı və aktiv sədrliyi ölkəmizin geosiyasi mövqeyinin daha da güclənməsinə şərait yaradır. Prezident İlham Əliyevin Zirvə görüşündəki çıxışı Hərəkat vasitəsilə BMT, eləcə də "Bretton-Vuds" qlobal idarəetmə sistemində yeni təkmilləşdirməyə ehtiyacın olması və dəyişikliklərin necə aparılması ilə bağlı konkret istiqamətlərin təqdimatına imkan yaradıb. Ölkəmizin sədrliyi bir daha təsdiq etdi ki, Azərbaycan nəinki qlobal təşkilatlarda fəal iştirak edən, hətta bu qurumların idarəedilməsində də aktiv mövqeyə malik olan dövlətlərdəndir.

### Prezidentin verdiyi mesajlar beynəlxalq siyasi prosesin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir

Milli Məclisin deputatı Rəşad Mahmudov isə qeyd edib ki, Azərbaycan beynəlxalq arenada yürütdüyü xarici siyasət kursunda tərəfsizlik, dünyada sülhün və dövlətlər arasında qarşılıqlı əməkdaşlığın bərqərar olmasını hər zaman əsas tutub.

Ölkəmizin Qoşulmama Hərəkatında fəaliyyətinin xüsusi diqqət çəkdiyini deyən deputat vurğulayıb ki, Azərbaycanın üzvlüyü ilə Qoşulmama Hərəkatının fəaliyyəti canlanıb və beynəlxalq nüfuzu artıb: "Qoşulmama Hərəkatının BMT-yə alternativ gücə çevrilməsi məhz Azərbaycanın bu təşkilatda fəaliyyəti ilə birbaşa bağlıdır. Sədrlik dönəmində Prezident İlham Əliyevin yürütdüyü siyasət Hərəkatın beynəlxalq arenadakı mövqelərini gücləndirməyə xidmət edib. Bu baxımdan Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü beynəlxalq münasibətlərin inkişafında ciddi rol oynayacaq".

Zirvə görüşündə Prezident İlham Əliyev öz çıxışında qurumun BMT-dən sonra qlobal arenada ikinci ən böyük beynəlxalq təsisat kimi səmərəli rol oynamasında, dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməsinə toxundu. Deputat dedi: "Prezident təşkilatın fəaliyyətinə nəzər salaraq bəşəriyyətə faciələr yaşadan pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatının olduğunu və bu təşkilatın səmərəli fəaliyyət göstərdiyini bildirdi. Beləliklə, Qoşulmama Hərəkatı COVID-19-la mübarizədə nüfuzunu və məsuliyyətini dünyaya nümayiş etdirdi".

R.Mahmudov bildirib ki, ölkəmiz humanizm prinsiplərinə sadiq qalaraq əksəriyyəti Qoşulmama Hərəkatı ailəsinin üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərib. "Bundan başqa, dövlətimizin başçısı Ermənistanın işğalı nəticəsində Azərbaycanın dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr sırasında olduğunu, postmünaqişə dövründə 300 azərbaycanlının mina partlayışı nəticəsində həlak olduğunu və yaralandığını da diqqətə çəkdi. Prezident Qoşulmama Hərəkatına üzv ölkələrin Azərbaycanın haqlı mövqeyini dəstəklədiyi üçün xüsusilə 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında ölkəmiz əleyhinə birtərəfli və qərəzli bəyanatların qəbuluna imkan vermədikləri üçün qurum üzvlərinə təşəkkür də etdi", - deyə deputat əlavə edib.

Prezidentin dünyada neokolonializm meylinin artdığının müşahidə olunması ilə bağlı fikrini xatırladan deputat qeyd edib ki, bunun qarşısını almaq üçün Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində birləşməli, bu yöndə ciddi addımlar atmalıdır.

Deputat vurğulayıb ki, Bakıda keçirilən Zirvə görüşü Qoşulmama Hərəkatının tarixində mühüm rol oynayacaq. Bu görüşdə Azərbaycan Prezidentinin verdiyi mesajlar, əslində, beynəlxalq siyasi prosesin gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Görüş eyni zamanda dövlətimizin gücünün və beynəlxalq arenadakı mövqeyinin möhkəmliyinin real təsdiqidi. Azərbaycan və onun liderinin siyasi gücü Qoşulmama Hərəkatının Bakı Zirvə görüşündə bir daha özünü göstərdi. Bu güc milli maraqlarımızın təmin olunması üçün ən ciddi amildir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın sülh missiyası

## Respublikamız öz məqsədlərinə doğru inamla irəlləyir





Xəbər verildiyi kimi, Xocalıda, Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin qərargahında Qarabağda yaşayan erməni sakinlərin təmsilçiləri ilə görüş keçirilib. Görüş zamanı suveren ərazilərimizdə yaşayan erməni sakinlərin Azərbaycan Respublikasına reinteqrasiyasına dair ilkin müzakirələr aparılıb.

Bu, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması, eləcə də bölgədə sabitliyin və əmin-amanlığın bərpası üçün əhəmiyyətli addımdır. Xocalıda baş tutan ilk təmas, həmçinin Prezident İlham Əliyevin "Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır və onların taleyini, onların gələcək həyatını hər hansı bir ölkə ilə, o cümlədən Ermənistanla müzakirə etmək fikrində deyilik" kimi açıqlamasının məntiqi nəticəsidir.

Dövlət başçısı Qarabağ ermənilərinin Azərbaycan vətəndaşları olduğunu və erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazır olduğumuzu qeyd edib. "Biz bunu etməyə hazırıq, lakin erməni icmasının Qarabağda doğulmuş və bütün ömrü boyu orada yaşamış nümayəndələri ilə, Qarabağda Rusiyadan rəhbər mövqe tutmaq üçün ixrac edilmiş (exported) şəxslə deyil", - deyə ölkə rəhbəri bildirib.

Erməni sakinlərlə görüş də təsdiq edir ki, Qarabağda yaşayan sadə ermənilərin cəmiyyətimizə reinteqrasiyası dövrü artıq başlayıb. Proses yekunlaşana qədər erməni sakinlərlə təmaslar davam etdiriləcək.

### Diplomatiyamızın uğuru olan görüş

Milli Məclisin deputatı Fəzail Ağamalı qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs, Milli Məclisin deputatı Ramin Məmmədovun erməni sakinlərin təmsilçiləri ilə görüşü gözlənilən idi. Deputatın dediyinə görə, Azərbaycan Prezidentinin qətiyyətli, davamlı və sistemli siyasəti bizi buna addım-addım yaxınlaşdırdı.

"Prezident İlham Əliyevin Qarabağda yaşayan ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası ilə bağlı müxtəlif beynəlxalq platformalarda səsləndirdiyi fikirlər öz nəticəsini verir. Sözsüz ki, diplomatiyamızın uğuru kimi dəyərləndirilməli olan bu görüş dövlət başçısının "Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır", "Onların hüquq və təhlükəsizliyi digər Azərbaycan vətəndaşları kimi təmin olunacaq", "Kənar müdaxilələr yolverilməzdir" kontekstli çıxışlarının təzahürüdür. Bu bir daha sübut edir ki, Qarabağda yaşayan və separatizmə yaxından-uzaqdan bağlılığı olmayan sadə ermənilərin Azərbaycan vətəndaşı kimi cəmiyyətimizə inteqrasiyasında hansısa problem yoxdur. Sadəcə olaraq, ortalıqda onları qızışdıran və bu niyyətlərindən çəkindirmək istəyən Arayik Arutyunyan kimi bir cani var. 44 günlük Vətən müharibəsində dinc əhalini raket atəşinə tutmağın, şəhərlərimizi bombardman etməyə əmr verən Arutyunyan vaxtı çatanda cinayətkar əməllərinə görə cavab verəcək. Digər tərəfdən, Qarabağa xüsusi olaraq göndərilən Ruben Vardanyan da ifşa olundu, onun riyakar niyyətləri darmadağın edildi. Prezidentin qətiyyətli çıxışlarının nəticəsidir ki, Qarabağda suverenliyimizin təmin edilməsinə mane olmağa çalışan bu beynəlxalq səviyyəli dələduz proseslərdən kənarlaşdırıldı".

F.Ağamalı vurğulayıb ki, əli qana bulaşmayan, separatizmin güclənməsində xidmətlər göstərməyən sadə ermənilərlə Azərbaycanın səlahiyyətli nümayəndələri arasında görüş keçirilməsi münasibətlərin normallaşması baxımından vacib əhəmiyyət kəsb edir: "Bu, mühüm addımdır. Ümidvaram ki, hörmətli həmkarımız Ramin Məmmədov bu missiyanı uğurla davam etdirəcək və nəhayət, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul edəcəklər. Onlar Azərbaycan qanunları çərçivəsində, bayrağımızı, dövlətçiliyimizi və suverenliyimizi qəbul etməklə ölkəmizdə təhlükəsiz yaşayışlarını davam etdirə bilərlər. Azərbaycan vətəndaşlığını qəbul etmiş ermənilər heç bir ayrı-seçkiliklə üzləşməyəcəklər. Azərbaycan kifayət qədər məsuliyyətli dövlətdir. Ölkəmizin dünya miqyasında verdiyi töhfələr hər kəsə məlumdur. Bu baxımdan, erməni sakinlərin gələcəkdə Azərbaycan vətəndaşları kimi sakit və təhlükəsiz yaşayacaqlarına heç kəsin şübhəsi olmasın. Prezident uzun müddətdir ki, "Biz elə etməliyik ki, Qarabağda bir daha belə hadislər baş verməsin" tezisinə söykənərək ikiəsrlik Qarabağ problemini sıfırlayıb, gələcək nəsillərə və Azərbaycan dövlətçiliyinə mühüm töhfə verib".

### Belə təmaslar sülhpərvərliyin sübutudur

Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, Azərbaycanın suveren ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin qərargahında Qarabağ bölgəsində yaşayan erməni sakinlərin təmsilçiləri ilə görüş növbəti diplomatik uğur kimi qiymətləndirilməlidir. Deputatın sözlərinə görə, proses tam yekunlaşmasa da, belə görüşlərin keçirilməsi çox önəmlidir.

"Bir sıra region dövlətləri Qarabağda yaşayan ermənilərin reinteqrasiyasının qarşısını almaq üçün müxtəlif layihələr hazırlamışdılar. Əvvəlki dövrdə həm Ermənistan tərəfi, həm də bir sıra digər dövlət və beynəlxalq təşkilatlar bu danışıqların Ermənistanla aparılmasında israr edir, hətta Qarabağa status da tələb edirdilər. Azərbaycan isə bu planı elə ilkin mərhələdə pozdu. Hazırkı mərhələdə isə bölgədə ən qısa müddətdə sülhün bərqərar olması çox önəmlidir. Lakin biz bu yolun uzun və çətin olduğunu da unutmamalıyıq. Bu yolda uğurlu nəticə əldə etmək üçün Qarabağda yaşayan erməni sakinlərlə görüşlərin təşkil edilməsi məqsədəuyğundur. Açıq-aydın ortadadır ki, Azərbaycan bütün hallarda Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz məqsədlərinə doğru inamla addımlayır", - deyə C.Məmmədov qeyd edib.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# 3 ildə 875 min müraciət

## Tovuz "ASAN Həyat" kompleksinin fəaliyyəti bir daha təsdiq edir ki, dövlət-vətəndaş münasibətlərində çevik, operativ və innovativ mexanizmlər tətbiq olunur

Bu gün Tovuz "ASAN Həyat" kompleksinin açılışından 3 il ötür. Prezident İlham Əliyevin respublikamızın qərb rayonlarına səfəri çərçivəsində 2020-ci il mart ayının 4-də açılışı olan kompleksdə "ASAN xidmət" mərkəzi, ABAD mərkəzi, "ABAD Factory" Bitkilərin Emalı və Qurudulması Fabriki, Kinoklub, "ABAD məktəb" təlim mərkəzi, ASAN Hərbi Vətənpərvərlik Mərkəzi və ASAN Kafe fəaliyyət göstərir. Bu günlərdə mərkəzə baş çəkərək onun vətəndaşlara göstərdiyi xidmətlə yaxından tanış olduq.



### 60,5 milyondan çox müraciət

Öncə onu qeyd edək ki, respublikamızda uğurla reallaşdırılmış islahatların əsas məqsədlərindən biri vətəndaş məmnunluğunun təmin olunmasıdır. Son illərdə bu istiqamətdə effektiv tədbirlər həyata keçirilib, vətəndaşlara xidmət sferasında vacib amillər olan şəffaflıq və operativlik təmin edilib. Əhaliyə göstərilən xidmətlərin daha rahat, daha keyfiyyətli, eyni zamanda müasir innovasiyalar əsasında həyata keçirilməsinə xidmət edən təqdirəlayiq addım isə Azərbaycanın milli brendi olan "ASAN xidmət" mərkəzlərinin yaradılmasıdır.

"ASAN xidmət" mərkəzləri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli fərmanına əsasən təşkil edilmişdir. 2012-ci il dekabrın 29-dan bu günədək 24 "ASAN xidmət" mərkəzi yaradılıb. Onlardan 7-si Bakıda, 2-si Gəncədə, 2-si Sumqayıtda, digərləri Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir. Həmçinin Bakıda əhaliyə kommunal sahədə xidmətlər göstərən 3 "ASAN Kommunal" mərkəzi də fəaliyyətdədir. İlk "ASAN xidmət" mərkəzinin istifadəyə verildiyi tarixdən indiyədək 60,5 milyondan çox müraciət qeydə alınıb.

Göstərdiyi yüksək xidmətə görə, "ASAN xidmət" bir çox nüfuzlu mükafatlara layiq görülüb. Belə ki, ölkəmizin milli brendi 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Mükafatı, 2019-cu ildə BMT-nin rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatı ilə təltif olunub. Bu il isə "Qlobal Hökumət Mükəmməlliyi Mükafatı" Proqramı çərçivəsində "Dünyanın Ən Qabaqcıl Dövlət Xidməti" seçilərək xüsusi mükafata layiq görülüb.

### Vətəndaşların ən çox üz tutduqları regional ünvan

Tovuz regional "ASAN xidmət" mərkəzi 2020-ci il mayın 4-dən fəaliyyətə başlayıb. Mərkəz Tovuz, Qazax, Ağstafa, Şəmkir, Gədəbəy və Samux rayonlarında qeydiyyatda olan 737 minə yaxın vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərir. Mərkəzin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət prinsiplərinə və vətəndaş rahatlığına hesablanıb.



Fəaliyyət göstərdiyi müddət ərzində burada 875 minə yaxın vətəndaşın müraciəti qeydə alınıb. Mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 360-dan çox xidmət həyata keçirilir. Mərkəzin əməkdaşı, sorğular üzrə məsul şəxs Elşən Abbasovun sözlərinə görə, Tovuz "ASAN xidmət" mərkəzi Tovuz və ətraf rayonların sakinlərinin daha çox müraciət etdiyi regional ünvandır. Mərkəz öz fəaliyyətini yüksək səviyyədə həyata keçirməklə vətəndaş məmnuniyyətini də təmin edir. Hazırda mərkəzdə vətəndaş məmnuniyyətinin göstəricisi 99 faizdən yüksəkdir.

Mərkəzə müraciət edən vətəndaşlar həqiqətən də məmnun görünürdülər. Nəcmiyə Sədizadə deyir ki, dövlət orqanlarına müraciət edərkən yalnız "ASAN xidmət"ə üz tuturlar: "Bütün işlərimizə görə bura gəlirik və xüsusilə qeyd etmək istəyirəm ki, həmişə burada ilk növbədə vətəndaşlarla xoş rəftarın şahidi oluruq. Burada yalnız işimiz asanlaşmır, həm də adamın ürəyi açılır".



Yaşı 90-ı ötmüş Abbasəli Həsənov indiyə qədər neçə dəfə "ASAN xidmət"ə gəldiyini dəqiq bilməsə də, hər dəfə ona göstərilən xidmətdən məmnun qaldığını deyir: "Hər dəfə bura gələndə sanki adamın ruhu dincəlir, çünki müraicətlərimiz ən yüksək səviyyədə öz həlini tapır.

"ASAN xidmət" həm də Azərbaycanda könüllülük hərəkatının inkişafında xidmət edən əsas ünvanlardan biridir. Burada könüllülük fəaliyyəti sahəsində əldə edilən təcrübə bütövlükdə ölkədə bu hərəkatın daha da böyüməsinə səbəb olub. Həyat yolu "ASAN xidmət"dən başlayan könüllülərin bir qismi indi dövlət və özəl strukturlarında çalışırlar. Tovuz "ASAN xidmət" mərkəzində söhbətləşdiyimiz könüllülər də bu fəaliyyətin onların karyeraları üçün uğurlu başlanğıc olduğunu bildirdilər. Könüllü Elgün Qocayevin sözlərinə görə, könüllü fəaliyyət insana dünyagörüşü qazandırır, vətəndaşlarla layiqli şəkildə işləmək kimi vacib təcrübə formalaşdırır. Könüllü Sürəyya Hüseynova isə bildirir ki, könüllülük ictimai həyata atılan ilk mütərəqqi addımlardan biridir. Onun sözlərinə görə, dövlətimizin yaratdığı bu imkan ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətinin göstəricilərindən biridir.

### Çoxfunksiyalı xidmət kompleksi

Tovuz "ASAN Həyat" kompleksinin digər xidmət sahələri ilə də tanış olduq. Başqa komplekslərdə olduğu kimi, buradakı "ABAD" mərkəzin də əsas təyinatı region üzrə vətəndaşların ölkəmizin sosial-iqtisadi fəaliyyətində fəal iştirakını təmin etmək və rəqabətədavamlı ailə bizneslərinin, mikro və kiçik sahibkarların formalaşdırılmasına əlavə töhfə verməkdir.

Öyrənirik ki, Tovuz "ABAD Factory" Bitkilərin emalı və qurudulması fabrikində müxtəlif növ müalicəvi bitki çaylarının istehsalı və yerli meyvə çeşidlərinin qurudulması həyata keçirilir.

"ABAD məktəb"də isə dərzilik, İKT, emalatxana və digər sahə və peşələr üzrə təlimlərin təşkili üçün şərait mövcuddur və vaxtaşırı bu təlimlər təşkil edilir.

ASAN Hərbi Vətənpərvərlik Mərkəzində gənclər hərb tariximiz, ordu quruculuğu barədə geniş məlumatlar almaqla yanaşı, ibtidai hərbi hazırlıq təlimlərində iştirak edirlər. Mərkəzin "ASAN xidmət"də yerləşməsi isə yeniyetmələrin və gənclərin günün istənilən vaxtı rahat və maneəsiz buraya gəlmələrinə əlverişli imkan yaradır.

Vətəndaşların istirahəti üçün nəzərdə tutulmuş ASAN kafenin tutumu 64 nəfərdir. Kafedə müxtəlif oyun avadanlıqları olan uşaq əyləncə guşəsi də yaradılıb. Kompleksdə fəaliyyət göstərən kinoklubda hərəsinin 63 nəfər tutumu olan 2 kinozal var. Bundan başqa, kompleksin həyətində vətəndaşların asudə vaxtlarını xoş keçirmələri üçün park salınıb. Parkın ərazisində fəvvarə, uşaq əyləncə guşəsi, konsert meydançası və açıq havada 24 yerlik kafe yaradılıb.

Artıq üç ildir ki, vətəndaşların xidmətində olan "ASAN Həyat" kompleksi bu müddətdə regionda vətəndaşlara xidmət sahəsində böyük uğurlara imza atıb. Bu illər ərzində Tovuz, Qazax, Ağstafa, Şəmkir, Gədəbəy və Samux rayonlarının sakinlərinin dövlət qurumlarına müraciətlərində yeni keyfiyyət dəyişiklikləri baş verib. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycanda dövlət-vətəndaş münasibətlərində ən çevik və operativ, eyni zamanda innovativ mexanizmlər tətbiq olunur.

***Rəşad CƏFƏRLİ,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***





Çətin gün həmişə sınağa çevrilir. Belə günlər isə ayrı-ayrı insanların da, xalqların da həyatında az olmur. Məhz bu zaman ən heyrətamiz və ən ibrətli hadisələr baş verir. Başqa sözlə, mənəvi gücümüz, insani dəyərlərimiz özünü aydın şəkildə göstərir. Yaxşı da, pis də elə bu vaxt ortaya çıxır. Yəni kimin kim olduğuna şübhə qalmır.



# Deprem hekayələri





Xalqımızın necə yüksək keyfiyyətlərə malik olduğunu 44 günlük Vətən müharibəsində bütün dünya yaxşı gördü. Türkiyədə baş verən amansız zəlzələ isə qardaş xalqı imtahana çəkdi. Elə bizim özümüzü, bütün insanlığı da...

Depremin yaratdığı şəraitdə bəzən nağıla bənzəyən olaylar baş verdi. Bunlar müəllifi həyatın özü olan hekayələrdir.



### Adınla yaşa, Ayşə bala

O, beşikdə mışıl-mışıl yatan körpəsinə baxıb həyat yoldaşına:

- Babası, bu cocuğun nə vaxta kimi adı olmayacaq, - dedi.

Bir neçə gün əvvəl dünyaya göz açmış qızcığazın işdən yorğun gəldiyindən kreslodaca mürgüləyən atası yarıyuxulu halda:

- Sabah variantlarımıza baxıb bir qərara gələrik, - dedi. Axşamın xeyrindən sabahın şəri yaxşıdır...

Lakin nə o axşam xeyirlə gəldi, nə də sabah xoş açıldı. O gecə yer tərpəndi, son əsrin ən böyük təbii fəlakətlərindən biri baş verdi. Türkiyədəki amansız zəlzələ bu ailənin dünyasını tar-mar etdi. Dağıntılar arasından çətinliklə xilas edilən ana və körpəsi xəstəxanaya yerləşdirildi.

Eşidəndə ki Prezident Rəcəb Tayyib Ərdoğan zəlzələdən xəsarət alanlara baş çəkmək üçün Başakşəhərdəki bu xəstəxanaya gəlib, yaralı qadın çox həyəcanlandı. Ağrılar içində dikəlib çarpayının üstündə oturdu. Elə bu an Prezident Ərdoğan tibb işçiləri və xanımı ilə birlikdə palataya daxil oldu. Təbii ki, uşaq çarpayısındakı körpə də onun diqqətindən yayınmadı. Balacanın oğlanmı, qızmı olduğunu soruşdu, adını xəbər aldı.

- Adını siz verin, - deyə körpənin anası xahiş etdi.

Prezident uşağı qucağına götürüb dua oxudu. Üç dəfə "Ayşə Betül" deyərək balacaya verdiyi adı bəyan etdi...

Adınla yaşa, Ayşə bala. Qoy bu zəlzələ sənin həyatının ilk və son tufanı olsun, bir də çətinlik görməyəsən.

### Xilas edilmiş qadın nə söylədi

Prezident İlham Əliyevin tapşırığı ilə Türkiyədə olan Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin çevik xilasetmə qüvvələrinin ölümdən xilas etdiklərinin biri də Ayşə adında qadın idi. Dəstənin üzvləri onun halını xəbər aldılar, ürək-dirək verdilər.

Dağıntılardan çıxarılan yaralı və bu səbəbdən halsız və zəif qadın, xilaskarlarının mehribanlığından, şirin ləhcəsindən onların azərbaycanlı olduğunu yəqin elədi. Heç nə soruşmadan "Can Azərbaycan, canım qardaşlarım. İlham Əliyevə də salamları göndərirəm", - dedi.

### Zəlzələ uşaqları

Dağıntılar altından çıxarılan qız azacıq özünə gələn kimi xərəkdə başını qaldırıb ətrafda baxışları ilə kimisə axtardı.

- Qardaşım hanı? Qardaşımı tapın , - deyə az qala yalvardı...

Ölümdən qurtulan başqa bir uşağdan - balaca oğlandan uçqunlar altında qorxub-qorxmadığını soruşdular.

"Qorxmurdum, axı babam yanımda idi", - deyə cavab verdi. Uşaq əsl həqiqəti başa düşə bilməmişdi. Onu həyata bağlayan artıq həyatla vidalaşmış atasının soyuq cismi olmuşdu.

Hatayda 42 saat sonra dağıntılar altından çıxarılan yeniyetmə Haticenur Aslı Ardıçın ilk sözləri bu olub: "Mənə limonlu su ver".

Azyaşlı bir qız isə su içməkdən imtina etmişdi: "Axı hələ müayinə olunmamışam..."

### Ana sevgisi

Dağıntılar altında ata-oğul bir-birini görür və söhbət edirdilər. Əslində, danışan ata idi. O tez-tez balasına "Səni çox sevirəm" deyirdi. "Necəsən?" ,"Səni görürəm" deyə səslənirdi. Uşağı ruhdan düşməyə qoymamaq, onun dözümünü, səbrini artırmaq üçün yenidən şahmat oynayacaqlarını söyləyirdi. Xilas ediləcəklərinə ümidi çoxaltmaq üçün deyirdi ki, buradan çıxandan sonra yeni matçımız olacaq.

Oğlan şok və qorxu içində sakitcə uzanmışdı. Nəhayət, o da dinib ürəyini parçalayan fikri dilə gətirdi: "Əvvəlcə anamı çıxar buradan!"...

### İnsan insana qardaşdır

Türkiyədə dəhşətli zəlzələ baş verdiyini eşidən məşhur italyan aşpaz Danilo Zanna dərhal Malatyaya yola düşür. Burada o, zəlzələdən salamat çıxan yerli sakinlər üçün yeməklər bişirir.

"Heç kimi yalnız buraxmırıq. Hamı əlindən gələni etməyə çalışır. Bunun bir parçası ola bilmək mənim üçün böyük şərəfdir", - deyə o söyləyir.

### Dərdimiz də, sevincimiz də birdir

Ölkəmizdən Türkiyədə zəlzələdən zərərçəkənlərə yardım göndərənlər arasında şəhidlərimizin doğmaları da az deyil.

Yardımların toplandığı məntəqəyə gələn şəhid atası xahiş edir:

- Mənim bağlamamı açıb baxmağa ehtiyac yoxdur, qızım. Nə yığmışamsa, oğlumun adına layiqdir.

Digər bir olayı da həyəcansız dinləmək olmur. İkinci Qarabağ müharibəsinin şəhidi Elgün Abbaslının fotoşəklinin olduğu bağlama qardaş ölkədə zəlzələdən əziyyət çəkən başqa bir şəhid ailəsinə çatır. Təsadüfə bir bax... Şəhidimizin anası Sevda Cəfərovanın göndərdiyi bağlama Hakkaridə şəhid olan Cevdet Şişmanın anası Ayşe Şişmanı çox kövrəldir.

Qutunun üzərindəki şəkli kəsib götürən ana "Bağlamadakı şəkil mənə bəs etdi, dünyam oldu. Bu şəkli götürüb Cevdetimin yanına qoydum", - deyir.

Elgünün bundan xəbər tutan anası da çox təsirlənir: "Mənim balamı öz balası kimi qəbul edib, fotosunu sinəsinə basdığı üçün təşəkkür edirəm. Onun balasına qurban olum. Kaş yaxın olardı, mən də gedib onun balasını ziyarət edib, başdaşını bağrıma basardım".

### Həyat davam edir

Hatayda zəlzələdən sağ çıxan Adem və Tülin məskunlaşdıqları Bursada həyatlarını birləşdirən evliliyə imza atıblar.

Onlar iki il əvvəl Hatayda tanış olub, bir-birini sevib və nişanlanıblar. Adem 34, Tülin 29 yaşındadır. Kahramanmaraşda baş verən zəlzələdə evlərini son anda tərk edə biliblər. Cehizləri, toy tədarükləri dağıntılar altında qalıb. Evləri uçan cavanlar Bursaya pənah gətiriblər. Burada nikah bağlamaq qərarına gəliblər.

Nikah günü Tülinin dedikləri hamıya duyğulu anlar yaşadıb: "İndi biz həyatımızı burada davam etdirmək istəyirik. Xatirələrimiz, aldığımız toy əşyaları Hatayda dağılan evimizlə birlikdə getdi. Şükürlər olsun ki, əlimiz, ayağımız var. Biz yenidən ev qura və əşyalar ala bilərik".

Nə demək olar? Belə hallar üçün atalar yaxşı deyib: "Xeyirlə şər qardaşdır." Həyat davam edir...

Deprem hekayələri bununla bitmir. Onlar bəlkə də yüzlərlədir. Elə yüzlərin birini misal gətirməklə də bugünkü hekayələri bitirək. Zəlzələnin dəhşətini görən, dağıntıların altından möcüzələrlə xilas olanlardan biri sosial şəbəkədəki paylaşımında belə yazıb: "İndi başa düşdük ki, yaşadığımız evin kiçik, yaxud soyuq olması cüzi bir məsələ imiş. Hələ yatağımızı-yorğanımızı demirəm. Xörəyimizin boyat, yaxud bir az duzlu olması da əhəmiyyətsiz bir şey imiş. Yüksək markalı arabaların və telefonların da mənası yoxmuş... Uçuntuları altında qaldığımız bu fəlakət bir dərs olmalı! Qalıcı dəyər insanlıqdır! Sevdiklərinizin qədrini bilin, qəlbini qırmayın!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# ADAU-nun bir qrup tələbəsi Avropada təhsil alacaq



Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) "Erasmus+" proqramı çərçivəsində Avropanın müxtəlif ölkələrində bir semestr təhsil alacaq və təcrübə keçəcək tələbələrlə görüş keçirilmişdir.

Görüşdə çıxış edən universitetin rektoru vəzifəsini icra edən Zəfər Qurbanov deyib ki, cari il ADAU-nun 22 tələbəsi "Erasmus+" proqramı çərçivəsində Avropanın müxtəlif ölkələrində həm təhsil almaq, həm də təcrübə keçmək imkanı əldə edəcəklər. Bildirilib ki, xaricdə təhsilin ən böyük üstünlüklərindən biri xarici dil biliklərini daha da təkmilləşdirməkdir. Z.Qurbanov xaricdə təhsil alan hər bir tələbənin ölkənin təmsilçisi olduğunu diqqətə çatdıraraq onlara uğurlar arzulayıb. Sonra xaricdə təhsil alacaq tələbələrin valideynləri ilə onlayn görüş keçirilmişir.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

# OXUCULARIN NƏZƏRİNƏ!




**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# Ekoaksiya 83 gündür əzmkarlıqla davam edir




Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası 83 gündür davam edir.

AZƏRTAC xəbər verir ki, havanın şaxtalı olmasına baxmayaraq, hazırda aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. İştirakçılar səhər saatlarında Azərbaycanın Dövlət Himnini səsləndiriblər.

Qeyd edək ki, aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Ekoloji cinayətə son!" və sair şüarlar səsləndirirlər.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

# "Azərişıq" ASC ölkənin bütün regionlarında yenidənqurma işlərini davam etdirir

## Ağcabədinin Pərioğullar və Hacıbədəlli kəndlərinin elektrik şəbəkəsi yenidən qurulur

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, "Azərişıq" ASC tərəfindən həyata keçirilən investisiya layihəsi çərçivəsində Pərioğullar və Hacıbədəlli kəndlərinin elektrik şəbəkəsi yenilənir.

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, yenidənqurma nəticəsində 396 abonenti olan Pərioğullar kəndində 4 komplekt transformator məntəqəsi quraşdırılacaq. 12 kilometrə yaxın 10 kV-luq, 28 kilometrdən çox 0,4 kV-luq elektrik xətti yenilənəcək.

Ağcabədinin Hacıbədəlli kəndində də yenilənmə işləri davam etdirilir. 843 abonenti olan kənd ərazisində 9 komplekt transformator məntəqəsi quraşdırılacaq. 22 kilometrə yaxın 10 kV-luq, 32 kilometrdən artıq 0,4 kV-luq elektrik xətti dəyişdiriləcək.

Hər iki kənddə elektrik sayğacları yenisi ilə əvəz olunacaq.

Pərioğullar və Hacıbədəlli kəndlərində işlərin yekunlaşması ilə 1300-ə yaxın abonent keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təchiz ediləcək. Qeyd edək ki, investisiya layihəsinin birinci mərhələsində Ağcabədinin Mehrablı, Ağabəyli, Cəfərbəyli, Şənlik və Qaradolaq kəndlərinin elektrik şəbəkəsi yenidən qurulub.

Xatırladaq ki, investisiya layihəsi bütün regionlarda 100-dən çox kəndi əhatə edir.


**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
strukturlarına tələb olunan ağır texnikanın işlənmiş təkərlərinin satın alınması məqsədilə
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 13 mart 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi**
"Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədi ilə günərzi mərkəzlərin xidmətinin göstərilməsi (Ağsu, Ağdaş, Ağcabədi, Bərdə, Cəlilabad, Gəncə, Hacıqabul, Xaçmaz, İmişli, Kürdəmir, Qax, Qazax, Qobustan, Qəbələ, Quba, Qusar, Lənkəran, Masallı, Mingəçevir, Neftçala, Oğuz, Salyan, Saatlı, Samux, Sabirabad, Şabran, Şəmkir, Şirvan, Ucar, Yevlax şəhər və rayonları üzrə)" və "Ahıllar üçün günərzi qayğı mərkəzlərinin fəaliyyətinin təşkili" (Xaçmaz və Qax rayonları üzrə) adlı müsabiqələr keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 17 mart 2023-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqə 27 mart 2023-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili: 5036)**

***Müsabiqə komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


# Moskva və Pekindən etiraz

## Böyük iyirmilik yekun bəyannamə ilə bağlı razılığa gələ bilmədi



Hindistanda başa çatmış Böyük iyirmiliyin (G20) xarici işlər nazirlərinin görüşündə yekun bəyannamə ilə bağlı razılıq əldə olunmayıb.

Moskva və Pekin sənədin Rusiyanın Ukraynaya qarşı apardığı müharibəni pisləyən və qoşunlarının Ukrayna ərazisindən dərhal çıxarılmasını tələb edən bəndlərinə qarşı çıxıblar.

Yekun deklarasiyada 24 bənd yer alıb. Rusiya və Çinin üçüncü və dördüncü bəndlərə qarşı çıxdığı məlum olub. Həmin müddəalarda Ukraynada keçirilən xüsusi əməliyyat pislənilir, hərbi əməliyyatların dünya iqtisadiyyatına mənfi təsirindən, beynəlxalq hüquq normalarına riayət edilməsinin zəruriliyindən və nüvə silahından istifadənin yolverilməzliyindən bəhs edilir.

Yekun bəyannamədə həmçinin ərzaq və enerji təhlükəsizliyi, iqlim dəyişikliyi, milli səhiyyə sistemlərinin gücləndirilməsi, terrorizmlə mübarizə və digər məsələlərlə bağlı maddələr var. Sənəddə eləcə də taxıl sazişinin uzadılmasının vacibliyi vurğulanıb.

Eyni zamanda Nyu Dehlidə nazirlər sammiti çərçivəsində ABŞ və Rusiya diplomatik idarələrinin rəhbərləri arasında müharibə başlayandan bəri ilk şəxsi görüş baş tutub. Rusiyanın xarici işlər naziri Sergey Lavrovla ABŞ Dövlət katibi Entoni Blinken arasında ayaqüstü görüş cəmi bir neçə dəqiqə davam edib.

Məlumata görə, Blinken Moskvanı START müqaviləsinə əməl etməyə çağırıb, ABŞ-nin Ukraynaya dəstəyini davam etdirəcəyini bildirib və Rusiyada casusluqda ittiham olunan amerikalı Con Uilanın azadlığa buraxılmasını istəyib.

XİN başçılarının sammitində çıxışı zamanı Blinken müharibənin ağır fəsadları barədə danışıb: "Böyük iyirmiliyin hər bir üzvü və demək olar ki, hər bir ölkə Rusiyanın apardığı təcavüzkar müharibədən ziyan çəkir. Prezident Putin istəsə sabah həmin müharibəni dayandıra bilər".

Öz növbəsində Lavrov çıxışında Moskvanın "ciddi təklifləri" qəbul etməyə hazır olduğunu vurğulayıb: "Böhranın həllinə kömək etmək baxımından biz dəfələrlə açıq şəkildə demişik ki, siyasi həll yolu tapmaq üçün səmimi istəkdən irəli gələn ciddi təkliflərdən heç vaxt imtina etmirik".

O, Blinkenlə görüşdən sonra bildirib ki, Qərb Böyük iyirmiliyin bəyannaməsində "Şimal axını"nın zədələnməsi ilə bağlı vicdanlı təhqiqatın aparılması zərurətini əks etdirməkdən imtina edib.

Sergey Lavrov həmçinin Rusiyanın iştirakı ilə məhkəmələrin keçirilməsini istəyib.

Srağagün Hindistanın xarici işlər naziri Subramanyam Cayşankar bildirmişdir ki, Böyük iyirmilik ölkələrinin xarici işlər nazirləri Ukrayna münaqişəsi ilə bağlı ortaq mövqeyə gələ biliblər. O, həmçinin ölkələri fikir ayrılıqlarına deyil, onları birləşdirən məsələlərə diqqət yetirməyə çağırmışdır.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Qazılar Şurasının üzvləri və idarənin kollektivi Qazılar Şurasının üzvü

**ŞAHİN HÜSEYN OĞLU HƏSƏNLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının üzvü, Məşədi Dadaş məscidinin imamı

**ŞAHİN HÜSEYN OĞLU HƏSƏNLİNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xalq artisti Alim Qasımova atası

**HƏMZƏ QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5169
Sifariş 563

Qiyməti 40 qəpik